Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala Filialı

Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala Filialı

İnstitusional akkreditasiyası üzrə özünütəhlilin nəticələri haqqında

# HESABAT

Hesabat UNEC Zaqatala filialının
Elmi Şurasının 20/02/2023-cü il
tarixli iclasının 6 №-li qərarı ilə
təsdiq edilmişdir

Tarix: 20/02/2023

İmza ____________
(müəssisənin rəhbəri)

2023

**Mündəricat**


**Mündəricat** .......... 1

**I. Giriş** .......... 2

**1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar** .......... 2

**2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki** .......... 3

**3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti** .......... 8

**II. Təhsil müəssisəsinin özünütəhlili** .......... 9

**4. Özünütəhlil qiymətləndirməsinin icmalı** .......... 9

**1. STRATEJİ İNKİŞAF** .......... 9

**2. KEYFİYYƏT TƏMİNATI** .......... 13

**3. TƏLİM VƏ TƏDRİS** .......... 17

**4. ELMİ TƏDQİQAT** .......... 48

**5. İDARƏETMƏ SİSTEMİ** .......... 59

**6. İNFRASTRUKTUR** .......... 70

**7. BEYNƏLMİLƏLLƏŞMƏ** .......... 73

**5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri** .......... 76

**6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər** .......... 79

**III. Özünütəhlil Hesabatına əlavə olunan sənədlər** .......... **Error! Bookmark not defined.**

## I. Giriş

### 1. Təhsil müəssisəsinə dair ümumi məlumatlar

| | |
|---|---|
| Təhsil müəssisəsinin adı | Azərbaycan Dövlət İqtisad Universitetinin Zaqatala filialı |
| Sonuncu akkreditasiyaya dair şəhadətnamənin verilmə tarixi və müddəti | – |
| Təhsil müəssisəsinin lisenziyasına dair məlumatlar (dövlət təhsil müəssisələri istisna olmaqla) | – |
| Təhsil müəssisəsinin rəhbəri | Rzayev Orucəli Hüseynqulu |
| Fakültələrin sayı | 1 |
| Kafedraların sayı | 1 |
| Bakalavriat pilləsi üzrə ixtisasların sayı | 8 |
| Magistratura pilləsi üzrə ixtisasların (ixtisaslaşmaların) sayı | – |
| Doktorantura səviyyəsi üzrə ixtisasların (elm sahələri üzrə) sayı | – |
| Təhsil müəssisəsinin təhsilalan kontingenti | **Təhsilalan sayı**<br>Bakalavriat:1381<br>Magistratura: –<br>Doktorantura: –<br>Elmlər doktorluğu proqramı üzrə: – |
| Ştatdakı professor-müəllim (və ya pedaqoji) heyətin sayı | 33 |
| Əvəzçilik və saathesabı yolu ilə işləyənlərin sayı | 7 |
| Müəssisənin elektron ünvanı və əlaqə telefonu | unec.zf@unec.edu.az / +994242252157 |
| Müəssisənin hüquqi ünvanı | Zaqatala şəhəri Əhməd Rəcəbli küçəsi 4 |
| Müəssisənin faktiki ünvanı | Zaqatala şəhəri Əhməd Rəcəbli küçəsi 4 |

## 2. Təşkilat komissiyasının tərkibi və fəaliyyət qrafiki

Təşkilat komissiyasının tərkibi

| № | Pedaqoji adı (elmi dərəcə), ad, soyad | Vəzifə | E-mail ünvanı |
|---|---|---|---|
| **Sədr:** | | | |
| 1 | Alıyev Babək Rasim oğlu | Zaqatala İqtisad Məktəbinin rəhbəri | aliyev.babak@unec.edu.az |
| **Sədr müavini:** | | | |
| 2 | Dos.Razıyev Səfər Əmin oğlu | İqtisadiyyat və idarəetmə kafedrasının müdiri | Safar-Raziyev@unec.edu.az |
| **Katib:** | | | |
| 3 | Bayramova Nazlı Əhməd qızı | Tələbə və ümumi işlər üzrə mütəxəssis | Nazli-Bayramova@unec.edu.az |
| Üzvlər: | | | |
| 4 | Dos. Qədimova Həqiqət Kərim qızı | Direktor müavini | Haqiqat-Gadimova@unec.edu.az |
| 5 | Əhmədov Ayxan Ramiz oğlu | Zaqatala İqtisad Məktəbinin katibi | ahmadov.aykhan@unec.edu.az |
| 6 | Mirəliyev Ramil Fəxrəddin oğlu | İqtisadiyyat və idarəetmə bölməsinin rəhbəri | ramil-miraliyev@unec.edu.az |
| 7 | p.f.d.Babayeva Xəzəngül Süleyman qızı | Ümumi fənlər bölməsinin rəhbəri | khazangul-babayeva@unec.edu.az |
| 8 | Darçınov Daşqın Ramazan oğlu | Baş mühasib | Dashgin-Darchinov@unec.edu.az |

| | | | |
|---|---|---|---|
| 9 | Rüstəmova Lamiyə Sahib qızı | Keyfiyyətin təminatı və qiymətləndirmə üzrə mütəxəssis | Lamiyya-Rustamova@unec.edu.az |
| 10 | Babayeva Esmira Şamil qızı | Təcrübə işləri üzrə mütəxəssis | Esmira-Babayeva@unec.edu.az |
| 11 | Həsənli Tural Ehtiram oğlu | İnsan resursları üzrə mütəxəssis | Tural-Hasanli@unec.edu.az |
| 12 | Mansurova Günay Rafael qızı | Tyutor | Gunay-mansurova92@unec.edu.az |
| 13 | Sultanova Xanım Akif qızı | Kitabxanaçı | sultanova.xanim1986@mail.ru |

Təşkilat komissiyasının fəaliyyət qrafiki

| № | Komissiyanın üzvü | Fəaliyyət |
|---|---|---|
| 1 | Alıyev Babək Rasim oğlu | 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri<br>1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi<br>2.1 Keyfiyyət təminatı siyasəti<br>2.2 Daxili kefiyyət təminatı mexanizmləri<br>2.3 Kefiyyət təminatı mədəniyyəti<br>3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması<br>3.2. Təhsil proqramları<br>3.3 Tədrisin təşkili<br>3.4 Tədris metodları və üsulları<br>3.5 Təlim və tədris resursları<br>3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi<br>3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər<br>3.8 Tələbəyönümlü tədris<br>3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi<br>3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi<br>4.1 Elmi-tədqiqat strategiyası<br>4.2 Tədqiqat resursları<br>4.3 Elmi-tədqiqat fəaliyyəti<br>4.4 Akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti<br>5.1 İdarəetmə orqanları<br>5.2 İnsan resursların idarə edilməsi<br>5.3 Maliyyə resurslarının idarə edilməsi<br>5.4 İnformasiya idarəetmə sistemi<br>5.5 İctimaiyyətlə əlaqələr<br>6.1 Tədris infrastrukturu<br>6.2 Elmi-tədqiqat infrastrukturu<br>7.1 Beynəlmiləlləşmə siyasəti |

| | | |
|---|---|---|
| | | 7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilati strukturu<br>7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar<br>7.4 Beynəlmiləlləşmə performansı |
| 2 | Razıyev Səfər Əmin oğlu | 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması<br>3.2. Təhsil proqramları<br>3.3 Tədrisin təşkili<br>3.4 Tədris metodları və üsulları<br>3.5 Təlim və tədris resursları<br>3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi<br>3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər<br>3.8 Tələbəyönümlü tədris<br>3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi<br>3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi<br>4.1 Elmi-tədqiqat strategiyası<br>4.2 Tədqiqat resursları<br>4.3 Elmi-tədqiqat fəaliyyəti<br>4.4 Akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti |
| 3 | Qədimova Həqiqət Kərim qızı | 3.7 Professor-müəllim heyəti və inzibati-texniki işçilər<br>5.1 İdarəetmə orqanları<br>5.5 İctimaiyyətlə əlaqələr<br>6.1 Tədris infrastrukturu<br>6.2 Elmi-tədqiqat infrastrukturu |
| 4 | Babayeva Xəzəngül Süleyman qızı | 4.1 Elmi-tədqiqat strategiyası<br>4.2 Tədqiqat resursları |

| | | |
|---|---|---|
| 5 | Mirəliyev Ramil Fəxrəddin oğlu | 4.3 Elmi-tədqiqat fəaliyyəti<br>4.4 Akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti |
| 6 | Darçınov Daşqın Ramazan oğlu | 5.3 Maliyyə resurslarının idarə edilməsi |
| 7 | Əhmədov Ayxan Ramiz oğlu | 3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti<br>3.3.19 Yay semestrinin təşkili vəziyyəti<br>3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası<br>3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrə dinamikası |
| 8 | Rüstəmova Lamiyə Sahib qızı | 2.1 Keyfiyyət təminatı siyasəti<br>2.2 Daxili kefiyyət təminatı mexanizmləri<br>2.2 Daxili kefiyyət təminatı mexanizmləri |
| 9 | Babayeva Esmira Şamil qızı | 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi |
| 10 | Həsənli Tural Ehtiram oğlu | 5.1 İdarəetmə orqanları<br>5.2 İnsan resursların idarə edilməsi<br>5.4 İnformasiya idarəetmə sistemi<br>5.5 İctimaiyyətlə əlaqələr |
| 11 | Bayramova Nazlı Əhməd qızı | 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması |
| 12 | Mansurova Günay Rafael qızı | 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması |
| 13 | Sultanova Xanım Akif qızı | 6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti |

## 3. Təhsil müəssisəsinin öncəki akkreditasiya qiymətləndirilməsi zamanı verilmiş tövsiyələrin icra vəziyyəti

Azərbaycan Respublikası prezidentinin 29 aprel 2016-cı il tarixli sərəncamına əsasən Azərbaycan Dövlət Pedoqoji Universitetinin Zaqatala filialı Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) Zaqatala filialı hesab edilmişdir. Yeni yaradıldığı üçün UNEC-in Zaqatala filialında ilk dəfə akkreditasiya prosesi həyata keçirilir.

## II. Təhsil müəssisəsinin özünütəhlili

## 4. Özünütəhlil qiymətləndirməsinin icmalı

İnstitusional Akkreditasiya üzrə təlimat kitabçasının təsdiq edilməsi üçün Təhsildə Keyfiyyət Təminatı Agentliyinin (bundan sonra – Agentlik) F-181 nömrəli 14.11.2022-ci il tarixli tarixli əmri ilə təsdiqlənmiş metodologiyaya əsaslanaraq qiymətləndirilmişdir. Özünütəhlilin məqsədi təhsil müəssisələrinin davamlı olaraq təkmilləşdirilməsini, daxili keyfiyyət təminatının qiymətləndirilməsini təmin etmək və ictimaiyyəti təhsilin keyfiyyəti barədə məlumatlandırmaqdır. Təhsil müəssisəsinin özünütəhlili UNEC-in Zaqatala filialının 20.10.2022-ci il tarixli, 02t/29 nömrəli əmri ilə yaradılmış Təşkilat Komissiyası tərəfindən aparılmışdır. Təşkilat Komissiyasının istiqamətlər üzrə yekun qiymətləndirmə nəticələri aşağıdakı kimidir[1]:

### 1. STRATEJİ İNKİŞAF

*1.1 Ali təhsil müəssisəsinin missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri*

*1.1.1 ATM-də qısa və ortamüddətli dövr üçün strateji inkişaf proqramının (SİP) hazırlanması vəziyyəti*

UNEC-in Zaqatala filialında Strateji inkişaf planı "UNEC-100 İnkişaf Strategiyasına (2019-2030)" əsaslanır və buna müvafiq olaraq hal-hazırda fəaliyyət planı hazırlanır.

*1.1.2 ATM-in SİP-də müəyyən edilən missiyasının onun fəaliyyətinin əsas məqsədinə və hədəflərinə uyğunluğu.*

UNEC 100 İnkişaf Strategiyasını əsas götürərək UNEC-in Zaqatala filialında da, milli dəyərlərə əsaslanaraq regionda yüksək keyfiyyətli təhsil vermək, nəticəyönümlü və xüsusilə də regionların inkişafına təkan verə biləcək tədqiqatlar aparmaq və regionda sosial xidmətlər göstərmək kimi hədəflər müəyyən edilmişdir.

*1.1.3 SİP-də müəyyən edilən strateji baxışın ölkənin əmək bazarının, cəmiyyətin və iqtisadiyyatın inkişaf istiqamətlərinə uyğunluğu.*

UNEC 100 İnkişaf Strategiyası universitetin 100 yaşının tamam olduğu müddətdə dünyanın ən yaxşı 500 universiteti içərisində yer almağı hədəfləmişdir. Hal-hazırki dövrdə belə öz sahəsi üzrə UNEC və filialın məzunları əmək bazarında

[1] Uyğun istiqamət və meyarlar üzrə qısa icmal müvafiq indikatorların təhlili əsasında aparılmalıdır. Belə ki, hər bir icmal təsdiqedici sənədlər, qoşma və ya keçidlərdən (link) istifadə edilməklə, eləcə də informasiyanın ümumiləşdirilməsi məqsədilə təqdim edilmiş şablon formalar doldurulmaqla müfəssəl hala gətirilməlidir.

dominantlıq təşkil edir. UNEC-in Zaqatala filialının əsas strateji baxışı “UNEC 100 İnkişaf Strategiyası”na uyğun olaraq əmək bazarında ciddi nüfuza sahib olan yüksək keyfiyyətli kadrlar hazırlamaq və regionun eyni zamanda cəmiyyətin inkişafına xüsusi tövhələr verməkdir.

*1.1.4 SİP-də müəyyən edilən prioritet istiqamətlərin ATM qarşısında qoyulan məqsəd və hədəflərə uyğunluğu*

UNEC 100 İnkişaf Strategiyasında konkret məqsəd və hədəflər qeyd olunmuşdur. UNEC-in Zaqatala filialında hazırlanan fəaliyyət planında həmin məqsədlər və hədəflər üzrə meyarlar öz əksini tapacaqdır.

*1.1.5 SİP-də strateji baxışda qoyulmuş əsas strateji istiqamətlərə nail olunması üçün əsas məqsəd və hədəflərin müəyyən edilməsi*

UNEC-100 İnkişaf Strategiyasında 2030-cu ilə qədər reallaşdırılması nəzərdə tutulan 7 strateji məqsəd və 31 strateji hədəf müəyyən olunmuşdur ki, filialda həmin məqsəd və hədəflərə uyğun fəaliyyət planı hazırlanır.

*1.1.6 SİP-də müəyyən edilmiş əsas strateji məqsəd və hədəflər üzrə qısa və ortamüddətli dövr ərzində görüləcək tədbirlərin əks olunması*

Hazırlanacaq fəaliyyət planında qısa və ortamüddətli dövrlər üçün müvafiq sənədlərlə işin icrası istiqamətində aidiyyəti struktur bölmələrinə tapşırıqlar veriləcəkdir.

*1.1.7 SİP üzrə fəaliyyətin nəticələrini qiymətləndirməyə imkan verən kəmiyyət və ya keyfiyyət göstəricilərinin müəyyən edilməsi*

UNEC-in Zaqatala filialında hazırlanacaq fəaliyyət planı UNEC-100 İnkişaf Strategiyasında göstərilən kəmiyyət və keyfiyyət göstəricilərinə uyğun olacaqdır.

*1.1.8 SİP-də nəzərdə tutulmuş fəaliyyətləri icra etmək üçün resursların (insan, maliyyə və infrastruktur) ayrılması vəziyyəti*

Hazırlanacaq fəaliyyət planında icrası nəzərdə tutulmuş istiqamətlər üzrə filialın büdcəsindən vəsait ayrılması nəzərdə tutulur.

*1.1.9 SİP-in maliyyə təminatının ATM-də büdcə planlaşmasında nəzərə alınması vəziyyəti*
İcrası nəzərdə tutulan işlərin müvafiq dövrlər üzrə vəsait ayrılması filial büdcəsində nəzərə alınacaqdır.

*1.1.10 SİP-də sosial məsuliyyət, elmi yeniliklərin cəmiyyətə transferi, əqli mülkiyyətin qorunması və s. kimi məqamları özündə ehtiva etməsi vəziyyəti*
UNEC-100 İnkişaf Strategiyasının 4-cü strateji məqsədi və 3.2., 4.1., 4.2., 4.3., 4.4., 4.5. strateji hədəfləri birbaşa bu məsələləri özündə ehtiva edir.

*1.1.11 Cari il üçün SİP hazırlanan zaman SİP-in əvvəlki illərdə icra vəziyyətinin nəzərə alınması*
Fəaliyyət planının icrası müddətində nəzərə alınacaqdır.

*1.1.12 SİP-də ATM-in güclü tərəflərinin, zəif tərəflərinin, imkanlarının və təhdidlərinin nəzərə alınması*
Fəaliyyət planı hazırlandığı müddətdə GZİT (SWOT) təhlili aparılacaqdır.

*1.1.13 SİP-in hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti*
Fəaliyyət planı hazırlanarkən aidiyyəti tərəflərlə müzakirə ediləcəkdir.

*1.1.14 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin müəyyən edilməsi*
Fəaliyyət planında müəyyən ediləcək işlərin icrası dövründə müvafiq struktur bölmələr üzrə

*1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi*

*1.2.1 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının tərtib edilməsi və məlumatlandırma vəziyyəti*
UNEC 100 İnkişaf Strategiyasını istinad edərək, UNEC-in Zaqatala filialında fəaliyyət planı hazırlanır. Fəaliyyət planı yekunlaşdıqdan sonra plana uyğun işlərin icrası və monitorinqi həyata keçiriləcəkdir. Hazırlanacaq hesabatlar müvafiq struktur bölmələrin rəhbərləri tərəfindən həyata keçiriləcəkdir.

*1.2.2 SİP-in icrası üzrə ATM-in struktur bölmələrinin dövrü (yarımillik, illik) hesabatlarının müzakirəsi vəziyyəti*

Fəaliyyət planının icrası müddətində məsul struktur bölmələrin rəhbərləri və aidiyyəti şəxslərin iştirakı ilə həyata keçiriləcəkdir.

*1.2.3 SİP-in icrasının dövrü (illik) monitorinqinin aparılması vəziyyəti*

Fəaliyyət planının icrası müddətində həyata keçiriləcəkdir.

*1.2.4 SİP-in icrasının dövrü ( illik) monitorinqinin nəticələrinin müzakirəsivəziyyəti*

Fəaliyyət planının icrası müddətində həyata keçiriləcəkdir.

*1.2.5 SİP-in icrasının dövrü (illik) monitorinqinin nəticələrinə görə tədbirlərin görülməsi və monitorinq nəticələrinin maraqlı tərəflər üçün əlçatanlığıvəziyyəti*

Fəaliyyət planının icrası müddətində UNEC-in rəsmi saytında ( unec.edu.az ) və digər informasiya saytlarında paylaşılacaqdır.

## 2. KEYFİYYƏT TƏMİNATI

*2.1 Keyfiyyət təminatı siyasəti*

*2.1.1 ATM-in dayanıqlı keyfiyyət təminatı siyasətinini əks etdirən sənədin mövcud olması və maraqlı tərəflərin prosesdə iştirakı*

UNEC Zaqatala filialının keyfiyyət təminatı siyasəti UNEC üzrə keyfiyyət siyasətinin prinsiplərinə əsaslanır. Keyfiyyət siyasətinin idarə edilməsi, hədəflərin müəyyən edilməsi, tətbiq edilmiş mexanizmin monitorinqinin keçirilməsi, buna müvafiq olaraq təhlillərin aparılması nəzərdə tutulmuşdur. Bununla yanaşı UNEC-in Zaqatala filialında keyfiyyət təminatı siyasəti Baloniya təhsil prosesinin müddəalarına, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi”nə, “Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar”a (ESG), eyni zamanda dövlətin bu sahədəki müvafiq sənədlərinə və Elm və Təhsil Nazirliyinin normativ-hüquqi sənədlərinə uyğun olaraq həyata keçirilir. UNEC rektrounun 265/1/2021 nömrəli, 17.11.2021 tarixli və 217/1/2022 nömrəli, 04.10.2022-ci il tarixli əmrləri ilə tədris illəri üzrə monitorinq qrupları yaradılmışdır.

*2.1.2 ATM-in keyfiyyət təminatı siyasəti sənədinin sadə, anlaşılan və icrası mümkün olan formada tərtib edilməsi vəziyyəti*

UNEC üzrə keyfiyyət siyasəti sənədində keyfiyyət təminatı sisteminin inkişaf etdirilməsi üçün hədəflər müəyyən edilmişdir. Həmin hədəflərdə əməkdaşların peşəkarlıq səviyyəsinin artırılması “keyfiyyəti idarəetmə sisteminin” beynəlxalq standartlara uyğunlaşdırılması qeyd edilmişdir.

*2.1.3 ATM-in əməkdaşlarının keyfiyyət təminatı siyasəti barədə məlumatlı olması və bu siyasəti bölüşməsi*

UNEC-in Zaqatala filialında keyfiyyət təminatı siyasəti üzrə məlumatlıdırlar. Keyfiyyət təminatı siyasətinin prinsipləri əsasında müvafiq bölgü aparılmışdır.

*2.1.4 Keyfiyyət təminatı siyasətinin əhatəlilik səviyyəsi (təhsil proqramları, idarəetmə, infrastruktur, təhsilverənlərin və təhsilalanların keyfiyyət göstəriciləri)*

Keyfiyyət təminatı siyasətində təhsilverənlərin peşəkarlıq bacarıqlarının artırılması, təhsilalanlara keyfiyyətli xidmətin göstərilməsi hədəflənmişdir. Eyni zamanda keyfiyyət təminatı siyasəti istiqamətində infrastrukturun qurulması həyata keçirilmiş və təkmilləşdirmə işləri davam etdirilir.

*2.2 Daxili keyfiyyət təminatı mexanizmləri*

*2.2.1 ATM-in daxili keyfiyyət təminatı sisteminin mövcud olması (keyfiyyət təminatı üzrə Komissiya, onun strukturu və əsasnaməsi, fəaliyyət planı, iş bölgüsü, hesabatlar və s.)*

Daxili keyfiyyət təminatı sistemi olaraq filialın tədrsi blokunda, yəni Zaqatala İqtisad Məktəbinin (ZİM) (fakültə) tərkibində "keyfiyyət təminatı və qiymətləndirmə" üzrə mütəxəssis fəaliyyət göstərir. Gələcəkdə keyfiyyət təminatı və qiymətləndirmə üzrə şöbə yaradılması nəzərdə tutulur.

*2.2.2 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyaya təhsilalanların, işəgötürənlərin və digər maraqlı tərəflərin cəlb olunması*

ATM-də tədrisin keyfiyyətinin artırılması təhsilalanlara keyfiyyətli xidmətin göstərilməsi istiqamətində mütəmadi olaraq tədbirlər həyata keçirilir.

*2.2.3 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının strateji inkişaf planındakı hədəflərə uyğunluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında yaradılacaq keyfiyyət təminatı sistemi üzrə Komissiyanın fəaliyyət planının hazırlanan zaman strateji inkişaf planındakı hədəflərə uyğunluq nəzərə alınacaqdır.

*2.2.4 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planı üzrə icra mexanizmlərinin (planlaşdırma, icra, nəzarət, düzəlişlər et) işlək olması*

ATM-də daxili keyfiyyət təminatı sistemi üzrə qısamüddətli fəaliyyətlər icra olunur. Belə ki, 2021-ci ildən etibarən UNEC rektoru tərəfindən təsdiq olunmuş monitorinq qrupu fəaliyyət göstərir. Uzunmüddətli dövr üçün keyfiyyət təminatı siyasəti fəaliyyət planında nəzərdə tutulacaqdır.

*2.2.5 ATM-in daxili keyfiyyət təminatı sistemində hər bir proses üzrə, tədbirlərin, məsul şəxslərin və addımlar üzrə məsuliyyətlərin müəyyən edilməsi və səlahiyyət bölgüsünün aparılması*

Filialda fəaliyyət göstərən monitorinq qrupu üzrə səlahiyyət bölgüsü aparılmış, proseslər təhlil edilərək müvafiq təkliflərin verilməsi həyata keçirilir.

*2.2.6 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təsdiq edilmiş fəaliyyət planının əhatəliyi (təhsil proqramları, fakültələr, akademik heyət, inzibati heyət, təhsilalanlar və s.) vəziyyəti*

Filialda fəaliyyət göstərən monitorinq qrupunun fəaliyyəti əsasən tədrisin keyfiyyətinin artırılmasına istiqamətləndirilmişdir.

*2.2.7 ATM-in daxili keyfiyyət təminatı sisteminin hər kəs üçün əlçatan olması, keyfiyyət təminatı siyasətini özündə ehtiva edən, ehtiyac yarandıqca yenilənən və hər kəs üçün əlçatan keyfiyyət təminatı bələdçisinin (qaydalar toplusu) olması*

Hazırlanacaq fəaliyyət planında nəzərdə tutulmuşdur.

*2.2.8 ATM-in daxili keyfiyyət təminatı sistemi üzrə təhlil və qiymətləndirməsinin əhatəliliyi*

Tədrisin keyfiyyətinin artırılması istiqamətində monitorinq qrupu fəaliyyət göstərir.

*2.2.9 Daxili keyfiyyət təminatı üzrə ATM-in fəaliyyətinə dair illik Özünütəhlil Hesabatının hazırlanması vəziyyəti*

Hər tədris ilinin sonunda hesabat hazırlanır və aidiyyəti üzrə təqdim olunur.

*2.2.10 Əvvəlki akkreditasiya üzrə Yekun Hesabatda göstərilən tövsiyə və göstərişlərin icrasına dair hesabatın və fəaliyyət planının hazırlanması vəziyyəti.*

UNEC-in Zaqatala filialı ilk dəfə akkreditasiya olunur.

*2.2.11 ATM-in fəaliyyətinin təsir dairəsinə uyğun olaraq maraqlı tərəflərin rəylərinin və məmnunluq səviyyəsinin öyrənilməsi vəziyyəti*

Filialın fəaliyyət dairəsinə uyğun olaraq əmək bazarının nümayəndələri dəvət olunur və müvafiq təklif və tövsiyələri nəzərə alınır.

*2.3 Keyfiyyət təminatı mədəniyyəti*

| |
|---|
| *2.3.1 ATM-in rəhbərliyinin və daxili keyfiyyət təminatı sisteminə rəhbərliyi həyata keçirən məsul şəxslərin məlumatlılıq, nəzarət və proseslərdə iştirak səviyyəsi, akademik və inzabati heyətlə rəhbərlik arasında keyfiyyət təminatı üzrə səmərəli kommunikasiya şəbəkəsinin mövcud olması.*<br>Filial daxili keyfiyyət təminatı sistemində UNEC-lə paralel fəaliyyət göstərir.<br><br>*2.3.2 Keyfiyyət təminatı sahəsində əks-əlaqə, keyfiyyətin müşahidəsi, keyfiyyət mədəniyyətinin inkişafının izlənilməsi və araşdırılması*<br>Keyfiyyət təminatı sahəsində uğurlu təcrübələr araşdırılır və hazırlanan strateji fəaliyyət planında öz əksini tapacaqdır.<br><br>*2.3.3 Keyfiyyətin təmin olunmasında ATM-in rəhbərliyinin töhfəsi, institusional dayanıqlılıq istiqamətində görülən iş və fəaliyyətlər*<br>UNEC-in Zaqatala filialında daxili keyfiyyət təminatı sistemində UNEC-lə paralel fəaliyyət göstərir.<br><br>*2.3.4 Keyfiyyətin təmin olunmasında ATM-nin strukturlararası fəaliyyətin koordinasiyası vəziyyəti*<br>UNEC-in Zaqatala filialında daxili keyfiyyət təminatı sistemində UNEC-lə paralel fəaliyyət göstərir |

**3. TƏLİM VƏ TƏDRİS**

*3.1. Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması*

*3.1.1 Tələbə qəbulu üzrə sifarişlərin hazırlanması zamanı müvafiq ixtisaslar üzrə təhsil proqramlarında və təhsil standartlarında qeyd olunan tələblərin ödənilməsi vəziyyəti*

Tələbə qəbulu üzrə sifariş yerlərinin hazırlanması ZİM-in nəzdində çalışan tədris işləri üzrə mütəxəssis UNEC-in Tədrisin metodiki və keyfiyyət təminatı mərkəzinin (TMKTM) məsul əməkdaşlarıyla birgə bakalavr səviyyəsində faktiki qəbulu təhlil edir və növbəti tədris ili üzrə tələbə qəbulu proqnozunu müəyyənləşdirir. Bu proqnoz göstəricilər universitet rəhbərliyi ilə razılaşdırılır və UNEC tərəfindən Elm və Təhsil Nazirliyinə göndərilir. Mövcud proqnoz göstəricilərinin hazırlanması zamanı faktiki qəbulla yanaşı filialın auditoriya fondu, professor-müəllim heyəti və maddi-texniki baza imkanları da nəzərə alınır.

*3.1.2 ATM-də əmək bazarının tələblərinə uyğun olaraq tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi vəziyyəti*

Filialda tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi prosesində təhsilalanların istehsalat təcrübəsi keçdiyi müəssisələrin rəhbərlərindən əmək bazarının tələbləri öyrənilir və tələbə qəbulu sifarişlərinin hazırlanarkən həmin məlumatlardan istifadə olunur. Tələbə qəbulu sifarişlərinin optimal müəyyən edilməsi üçün filialda tədrisin həyata keçirilməsi üçün digər imkanları da (auditoriya fondu, kadr potensialı, maddi-texniki baza) nəzərə alınır. UNEC-in Karyera planlaşdırılması kafedrasıyla əlaqə saxlanılır və bu sahəyə aid müvafiq məlumatlar alınır.

*3.1.3 Tələbə qəbulu yerləri üzrə sifarişlərin formalaşmasında işəgötürənlərin iştirakı vəziyyəti*

ATM-də tələbə qəbulu sifarişlərinin formalaşdırılmasında əmək bazarının nümayəndələrinin təklif və tövsiyələri nəzərə alınır. Filial UNEC-də yaradılmış karyera mərkəzi ilə paralel fəaliyyət göstərir. Tələbə qəbulu sifarişlərinin formalaşdırılmasında regionun əmək bazarının araşdırılması daha vacibdir.

*3.1.4 Qəbul olmuş tələbələrin əvvəlki təhsilinin və kreditlərinin tanınması və nəzərə alınması vəziyyəti*

UNEC-in Zaqatala filialına qəbul olmuş subbakalavr və təkrar ali təhsil alan tələbələrin əvvəlki kreditlərinin uyğunlaşdırılması UNEC-in fənlərin uyğunlaşdırılması komissiyasında müvafiq qaydada baxılır. Filialda ayrı-ayrı ixtisaslar üzrə tədris olunan fənləri uyğunlaşdırılır. Təqdim olunan fənlərin, kreditlərin tanınması və uyğunlaşdırılması UNEC rektorunun 20.12.2018-ci il tarixində, 255/1/2018 nömrəli əmri ilə yaradılmış fənlərin uyğunlaşdırılması komissiyası tərəfindən həyata keçirilir.

### *3.2 Təhsil proqramları*

#### *3.2.1 ATM-də kadr hazırlığının təhsil səviyyələri üzrə əhatəliliyi*

ATM-də kadr hazırlığı Azərbaycan Respublikası Nazirlər kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsinin 6-cı səviyyəsinə (bakalavr) uyğun aparılır. UNEC-in Zaqatala filialında bakalavriat səviyyəsi üzrə “Mühasibat”, “Maliyyə”, “İqtisadiyyat”, “Menecment”, “Marketinq”, “Biznesin idarə edilməsi”, “İnformasiya texnologiyaları” və “Turizm işinin təşkili” ixtisasları üzrə kadr hazırlığı həyata keçirilir.

#### *3.2.2 ATM-də tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğunluğu vəziyyəti*

ATM-nin qarşısında duran əsas məqsəd əmək bazarının tələblərinə uyğun kadrların hazırlanmasıdır. UNEC-in Zaqatala filialında 8 ixtisas üzrə tədris prosesinin təşkili Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin təsdiq etdiyi “Bakalavriat Səviyyəsinin İxtisas üzrə Təhsil Proqramı”na uyğun hazırlanmış və UNEC Elmi Şurası tərəfindən təsdiq edilmiş Tədris Planları əsasında həyata keçirilir. Filialda hal-hazırda tədris prosesi Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 2014-cü il tarixli 913 saylı və 2020-ci il tarixli F-343 nömrəli qərarları ilə təsdiq olunmuş təhsil proqramları çərçivəsində həyata keçirilir. Yeni təhsil proqramlarına uyğun hazırlanmış tədris proqramlarında “Karyera planlaması”, “Yumşaq bacarıqlar (Soft skills)”, “Sərt bacarıqlar (Hard skills)” kimi fənlərin tədrisi nəzərdə tutulmuşdur ki, bu istiqamətdə qazanılan bilik və bacarıqlar əmək bazarının tələblərinə cavab verəcəkdir.

*3.2.3 ATM-də tədris olunan ixtisasların peşə və kvalifikasiya standartlarına uyğunluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında 2016-cı ildən 2020-ci ilə qədər əvvəlki təhsil proqramları əsasında təsdiq olunmuş tədris planları hazırlanmışdır. Bakalavr səviyyəsi üzrə 2020-ci ildə UNEC-in işçi qrupu tərəfindən hazırlanmış Təhsil Nazirliyinin F-343 nömrəli, 09.07.2020-ci il tarixli qərarı ilə təsdiq olunmuş ixtisasların təhsil proqramları "Təhsil haqqında" Azərbaycan Respublikasının qanununa, Azərbaycan Respublikası Nazirlər kabinetinin müvafiq qərarlarına, "Ali təhsilin bakalavriat (əsas (baza ali) tibb təhsili) səviyyəsi üzrə ixtisasların (proqramların) təsnifatına" uyğun hazırlanmışdır. ATM-də 8 ixtisas üzrə tədris prosesi aparılır və tədris aparılan ixtisasların tədris planları, ixtisaslar üzrə təhsil proqramlarının məzmununa, onun strukturuna, qiymətləndirmə qaydalarına uyğun hazırlanmışdır. Tədris planları və proqramları ali ixtisas təhsilinin Dövlət Standartlarına müvafiqdir. Tədris planları hazırlanarkən ali məktəb tərəfindən əvvəlki tədris planlarının ixtisas fənləri blokunda ciddi islahat aparılmış, profil yönümünün tələbinə uyğun fənlər daxil edilmişdir.

Seçmə fənlər blokunda fənlər seçilərkən tələbələrin maraq dairəsi nəzərə alınmışdır. Bütün ixtisaslar üzrə tədris planları hazırlanarkən tələbələrin peşəyönümlü hazırlığı ön plana çəkilmişdir. Bütün ixtisaslar üzrə tədris prosesinin təşkili tədris planlarına müvafiq olaraq yerinə yetirilir. Tədris planları UNEC Elmi Şurasında müzakirə edilmiş və təsdiq edilmişdir.

*3.2.4 Təhsil proqramlarının Azərbaycan Respublikasının ömürboyu təhsilüzrə Milli Kvalifikasiyalar Çərçivəsinin tələblərinə uyğunluğu*

Təhsil proqramları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 18 iyul tarixli 311 nömrəli qərarı ilə təsdiq olunmuş Azərbaycan Respublikasının ömürboyu təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi"nin 6-cı səviyyəsinə uyğun hazırlanmışdır. Azərbaycan Respublikası Nazirlər Kabinetinin 6 sentyabr 2010-cu il, 163 nömrəli qərarı ilə "Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası"nın təsdiq edilməsi haqqında qanunun tələblərinə uyğun olaraq təkrar ali təhsil proqramı üzrə kadr hazırlığı həyata keçirilir.

*3.2.5 Təhsil proqramlarının ayrı-ayrı ixtisasları (ixtisaslaşmaları) üzrə təsdiqedilmiş təlim nəticələrinə və məzmun standartlarına uyğunluğu*

Bakalavr səviyyəsi üzrə 2020-ci ildə UNEC-in işçi qrupu tərəfindən hazırlanmış Təhsil Nazirliyinin F-343 nömrəli, 09.07.2020-ci il tarixli qərarı ilə təsdiq olunmuş təhsil proqramlarında ATM-də tədris olunan bütün ixtisaslar üzrə təlim nəticələri, peşə kompetensiasının tələbləri nəzərə alınmışdır.

*3.2.6 Təhsil proqramları üzrə dərs saatlarının bölgüsünün Avropa KreditTransfer və Toplanması Sisteminin (AKTTS) prinsiplərinə uyğunluğu*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində*,* əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında qanuna uyğun olaraq bakalavr səviyyəsi üzrə təhsil proqramı 1 kredit 30 saata bərabər olmaqla auditoriya və auditoriyadan kənar saatlara bölünür. Tədris planları bakalavriyat səviyyəsində 240 (4 il) AKTS kreditindən ibarətdir. Tədris planları normativlərə uyğun 3 bloka bölünür. Ümumi fənlər, ixtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilmiş fənlərdən ibarətdir. Ümumi fənlər bloku iki yerə ayrılır. Məcburi fənlər 24 AKTS və seçmə fənlər 6 AKTS-dən ibarət olmaqla ümumilikdə 30 AKTS təşkil edir. Filialda tədrisin təşkili UNEC tərəfindən ayrı-ayrı ixtisaslar üzrə hazırlanmış tədris planları əsasında həyata keçirilir.

*3.2.7 Tədris fənlərinin təhsil proqramının tələblərinə uyğunluğu*

ATM-də İxtisaslar üzrə tədris edilən fənlər təhsil proqramlarına tələblərinə uyğun hazırlanmış tədris planlarında öz əksini tapır. Belə ki, tədris planlarında ümumi fənlər, ixtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlər öz əksini tapmışdır. UNEC tərəfindən təhsil proqramlarının hazırlanması və müvafiq ixtisaslar üzrə fənlərin seçilməsi zamanı əmək bazarının iştirakçılarının tövsiyələri, xarici nüfuzlu universitetlərin təcrübəsi nəzərə alınmışdır. Fənlərin təlim nəticələri Təhsil proqramının 6-cı bəndinə və hər bir fənnin təlim nəticələri bəndinə uyğun hazırlanmışdır.

*3.2.8 Həftəlik auditoriya və auditoriyadan kənar saatların miqdarının təhsil proqramlarına uyğunluğu*

Mövcud təhsil proqramları əsasında ayri-ayrı ixtisaslar üzrə tədris planları hazırlanmışdır.Təhsil proqramlarının tələblərinə əsasən təhsilalanın tədris yükü 5 günlük iş rejimi ilə auditoriya və auditoriyadan kənar saatların həcmi ümumi 45 saat təşkil etmişdir həftəlik 22,5 saat təşkil edir. Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50 %-dən çox olmamalıdır. Tədris planlarının hazırlanması zamanı tələbələrin həftəlik dərs saatları 22,5 saat olmaqla mövcud təhsil proqramlarının tələblərinə uyğun hazırlanmışdır.

*3.2.9 Təhsil proqramlarının icrası nəticəsində əldə olunacaq təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlığı*

Təhsil Proqramlarının əsasında hazırlanmış Tədris Planlarının təlim nəticələrinin ictimaiyyət üçün əlçatanlılığının təmin edilməsi məqsədilə UNEC-in (unec.edu.az) rəsmi saytında yerləşdirilmişdir.

*3.2.10 Təhsil proqramlarının hazırlanmasında və qiymətləndirilməsində işəgötürənlərin iştirakı vəziyyəti*

Təhsil proqramları UNEC-in işçi qrupu tərəfindən 2019-cu ildə hazırlanmış və 2020-ci ildə Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuşdur. Təhsil proqramları hazırlanarkən əmək bazarının nümayəndələri dəvət olunmuş, onların təklif və tövsiyələri nəzərə alınmışdır. Bununla yanaşı Təhsil Proqramlarında "Karyera planlaması", "Yumşaq bacarıqlar (Soft skills)", "Sərt bacarıqlar (Hard skills)" kimi fənlərin tədrisi nəzərdə tutulmuşdur.

*3.3 Tədrisin təşkili*

*3.3.1 Tədris planlarının kredit sisteminin tələblərinə uyğun tərtib edilmə vəziyyəti.*

Tədris planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nın təsdiq edilməsi haqqında qanuna uyğun hazırlanmışdır. Belə ki, bir kredit 30 saat olmaqla hər semestr ərzində 30 kredit tələbi nəzərə alınmışdır.

Təhsilanların məzun olmaları üçün 240 kredit toplamaları şərti hazırlanmış Tədris proqramlarında öz əksini tapmışdır.

*3.3.2 İxtisasın (ixtisaslaşmanın) tədris planında göstərilmiş fənlərin tədris illəri və semestrləri üzrə bölgüsünü əks etdirən tədris qrafikinin mövcudluğu vəziyyəti*

Bakalavr səviyyəsi üzrə tədris planları Təhsil Nazirliyinin 09.07.2020-ci il tarixli F-343 saylı qərarı ilə təsdiq olunmuş təhsil proqramları qaydalarının tələbləri nəzərə alınmaqla hər tədris illəri üzrə fənlərin prerekvezitliyi, korrekvezitliyi nəzərə alınmaqla tədris qrafikləri hazırlanır və müvafiq qaydada təsdiq olunur.

*3.3.3 Tədris planında məcburi və seçmə fənlərin bölgüsünün aparılması vəziyyəti*

Mövcud Tədris Planları bakalavriyat səviyyəsində 240 (4 il) AKTS kreditindən ibarətdir. Tədris planları normativlərə uyğun 3 bloka bölünür. Ümumi fənlər, ixtisas fənləri və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilmiş fənlərdən ibarətdir. Ümumi fənlər bloku iki yerə ayrılır. Məcburi fənlər 24 AKTS və seçmə fənlər 6 AKTS-dən ibarət olmaqla ümumilikdə 30 AKTS təşkil edir. Eyni zamanda ixtisas fənləri ümumilikdə 120 AKTS və Ali təhsil müəssisəsi tərəfindən müəyyən edilən fənlərə 60 AKTS, Təcrübəyə və bununla bağlı fənlərə isə 30 AKTS müəyyən edilmişdir.

*3.3.4 Tədris planında ümumi və ixtisas fənləri arasında balansın saxlanılması vəziyyəti*

Bakalavr səviyyəsi üzrə tədris planları Elm və Təhsil Nazirliyinin F-343 nömrəli, 09.07.2020-ci il tarixli qərarı ilə təsdiq olunmuş təhsil proqramları qaydalarının tələbləri gözlənilməklə hazırlanmışdır. Həmin tədris planlarında müvafiq qaydaların tələblərinin gözlənilməsi ilə yanaşı keyfiyyətli kadrların hazırlanmasıda nəzərdə tutulmuşdur.

*3.3.5 Fənnin təlim nəticələrinin ixtisasın nəticələri ilə əlaqələndirilməsi, uyğun olmayan təlim nəticələrinin müəyyən edilməsi, nəzarət edilməsi və qiymətləndirilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti*

ATM-də fənlərin təlim nəticələri daim təhlil edilir. Təhsil proqramlarının əmək bazarının dəyişən ehtiyaclarına cavab verən nəzəri və praktik məzmunu təmin etməsi məqsədilə fənlərin sillabusları mütəmadi olaraq yenilənir. UNEC-in işçi

qrupu tərəfindən hazırlanmış Təhsil proqramlarında hər bir fənn üzrə göstərilmiş 6 gözlənilən təlim nəticələri müəyyən edilmişdir. Həmin təlim nəticələri məzunların əldə edə biləcəkləri bilik, bacarıq və bunun əsasında müəyyən kompetensiyalara yiyələnmələrinə hədəflənmişdir. Fənlərin təlim nəticələri ixtisasın təlim nəticələri ilə əlaqələndirilmiş, tədris prosesində iqtisadiyyatda baş verən dəyişikliklərə və onun inkişaf dinamikasına uyğun bunlara daim nəzarət edilir və uyğun olmayan təlim nəticələri yenisi ilə əvəz edilərək təkmilləşdirilir. Eyni zamanda UNEC-də yeni tədris edilən fənlər üzrə xarici mütəxəssislər tərəfindən təlimlər təşkil edilir və filialın professor-müəllim heyəti həmin təlimlərə cəlb edilir.

*3.3.6 Fənnin təlim nəticələrinin fənn sillabuslarında öz əksini tapması və buna nəzarət mexanizmlərinin mövcudluğu vəziyyəti*

Fənn sillabuslarında təlim nəticələrinin və qiymətləndirmə meyarları ətraflı qeyd olunur. Sillabuslar müvafiq fənlər üzrə tədris prosesi aparan İqtisadiyyat və İdarəetmə kafedrasının əməkdaşları tərəfindən həyata keçirilir. UNEC-in Zaqatala filialında yeni və əvvəlki tədris proqramında və tədris planlarında olan fənlər üzrə sillabusların hazırlanması zamanı müasir yanaşmalar, xarici və yerli mütəxəssislərin təlimləri nəticəsində əldə olunan biliklər də nəzərə alınır.

*3.3.7 Tədris planında semestrlərdə nəzərdə tutulmuş fənlərin sayının və həftəlik dərs yükünün tələbəyə dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan verməsi vəziyyəti*

ATM-də Təhsil proqramlarının tələblərinə əsasən təhsilalanın tədris yükü 5 günlük iş rejimi ilə auditoriya və auditoriyadan kənar saatların həcmi ümumi 45 saat təşkil etmişdir, həftəlik 22,5 saat təşkil edir. Həftəlik auditoriya saatlarının həcmi ümumi həftəlik yükün 50 %-dən çox olmamalıdır. Tədris planlarının hazırlanması zamanı tələbələrin həftəlik dərs saatları 22,5 saat olmaqla mövcud təhsil proqramlarının tələblərinə uyğun hazırlanmışdır. UNEC-də olduğu kimi filialda da yeni təhsil proqramları üzrə təhsil alan tələbələrə 4 günlük iş rejimi nəzərdə tutulmuşdur ki, bu da təhsilalanların əlavə olaraq dərsdənkənar məşğələlərə vaxt ayırmasına imkan yaradır.

*3.3.8 Tələbələrin tədris ili ərzində təhsil alacağı fənləri, onların müvafiq kreditlərini, fənlər üzrə müəllimlərin siyahısını əks etdirən fərdi tədris planının mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında tələbələrin Fərdi Tədris Planları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 348 saylı qərarında qeyd edilən 3.3 “Tələbənin fərdi tədris planının tərtibi” bəndinə əsasən hazırlanır. Hər tədris ili üzrə müvafiq ixtisasları tədris qrafiki əsasında tələbənin fərdi tədris planı hazırlanır və Fakültədə saxlanılır. Təhsilin I ili istisna olmaqla FTP-lərin hazırlanmasında tələbələrin iştirakı təmin edilir və seçmə fənlərin tələbə tərəfindən seçilməsi həyata keçirilir

*3.3.9 İxtisasın (ixtisaslaşmanın) tədris planına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, cari tədris ilində tədris olunacaq fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən ixtisaslar (ixtisaslaşmalar) üzrə illik işçi tədris planının mövcud olması vəziyyəti*

Hər bir ixtisas Təhsil Proqramı əsasında ixtisasın (ixtisaslaşmanın) tədris planı və ixtisasın (ixtisaslaşmanın) illik işçi Tədris Planın hazırlanır. UNEC-in Zaqatala filialında tədrisi edilən ixtisasların tədris planlarına və tələbələrin fərdi tədris planlarına uyğun hazırlanmış, tədris olunan fənlərin adlarını, dərsin növlərini, fənlərin kreditlərini və tələbələrin sayını özündə əks etdirən müvafiq ixtisaslar üzrə illik işçi Tədris Planları (forma 3) mövcuddur.

*3.3.10 Müəllimlərin tədris etdiyi fənləri, mühazirə və məşğələlərə (laboratoriya işlərinə) ayrılan saatların miqdarını, həmin fənlərin semestrlər üzrə tədrisini, həmçinin fənn üzrə tələbələrin sayını özündə əks etdirən müəllimin illik işçi tədris planının mövcud olması vəziyyəti*

Müəllimin illik işçi tədris planı fakültə elmi şurasında, kafedra iclaslarında müzakirə edilir.

*3.3.11 Tədris növləri üzrə tədrisin təşkilinin uyğunluq dərəcəsi (mühazirə, seminar, laboratoriya işi və praktik məşğələlərin təşkili vəziyyəti)*

UNEC-in Zaqatala filialında tədrisin təşkili ixtisaslar üzrə Elm və Təhsil Nazirliyi tərəfindən təsdiq olunmuş Təhsil Proqramları əsasında UNEC tərədindən hazırlanmış tədris planları ilə təşkil edilir. Mövcud tədris planlarında hər bir fənnin tədrisində mühazirə, məşğələ və laboratoriya dərsləri nəzərdə tutulmuşdur.

Mühazirələr birləşdirilmiş qruplarda məşğələlər isə tədris olunan materialların daha da səmərəli mənimsənilməsi və tələbələrin hər birinin qiymətləndirilməsinin həyata keçirilməsi üçün birləşdirilmiş qrupun daxilində olan hər bir qrupa ayrı-ayrılıqda məşğələ dərsləri təşkil edilir. Labaratoriya dərsləri sadəcə "İnformasiya texnalogiyaları" ixtisasında nəzərdə tutulmuşdur.

*3.3.12 Məsləhət xidmətinin təşkili vəziyyəti*

UNEC Zaqatala filialı ZİM-in tərkibində 3 nəfər tyutor fəaliyyət göstərir. Onlardan 2 nəfər əyani təhsil forması üzrə, 1 nəfər isə qiyabi təhsil forması üzrə çalışır. Akademik məsləhətçilər tədrislə əlaqəli bütün zəruri məlumatları və sənədləri təhsilalanlara çatdırırlar. Hər bir təhsilalan üçün fərdi tədris planları hazırlanır və tədris ilinin əvvəlində (10 sentyabr tarixinədək) tələbələr təqdim edilir. UNEC-in Zaqatala filialında tyutor məsləhət xidməti təhsilalanlarla və yeni qəbul olunan tələbələrlə görüşlərin keçirilməsi, tələbələrin kredit sistemi ilə tədrisin təşkili, biliyin qiymətləndirilməsi, Elektron universitet, EDUMAN sistemində yeni yaradılmış məsləhət-müzakirə paneli üzərindən məsləhətlərin verilməsini, tələbələrin ayrı-ayrı təhsil illəri üzrə FTP-nin tərtib edilməsini həyata keçirir.

*3.3.13 Müəllimin rəhbərliyi altında tələbələrin sərbəst işinin hazırlanmasının təşkili vəziyyəti*

UNEC-in Zaqatala filialında 2019-2020-ci tədris ilinə qədər əvvəlki tədris proqramında imtahana qədər qazanılan 50 balın 10 balı sərbəst işə verilirdi. 2019/2020-ci ildən etibarən Qanunvericiliyin tələbləri nəzərə alınmaqla sərbəst işlərin qiymətləndirilməsi əvəzinə digər daha səmərəli qiymətləndirmə mexanizmi tətbiq edilir.

*3.3.14 Təcrübə (tədris, pedaqoji, arxeoloji, çöl, istehsalat, diplomqabağı və s.) işinin təşkili vəziyyəti*

UNEC-in Zaqatala filialında tədris planına görə İstehsalat təcrübəsi əyani təhsilalma formasında təhsilin IV, qiyabi təhsilalma formasında isə təhsilin V ilinin yaz semestrində 21 kredit (21x30=630 akademik saat) olmaqla regionda və ümumi Respublikada fəaliyyət göstərən müəssisələrdə həyata keçirilir.

Tələbələrə ixtisasına uyğun təcrübə müəssisəsini müəyyən etmək və həmin müəssisədə təcrübə keçmək hüququ verilir. UNEC-in Zaqatala filialında istehsalat

təcrübəsini təşkili və keçirilməsi qaydaları UNEC EŞ-nın 28 fevral 2019-cu il tarixli iclasının EŞ – 164 saylı qərarı ilə təsdiq olunmuş qaydalara əsasən həyata keçirilir

*3.3.15 Stajkeçmənin təşkili vəziyyəti*

UNEC-in Zaqatala filialında kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi Elm və Təhsil Nazirliyinin 09.07.2020-ci tarixli, F-343 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsi Proqramları"nda nəzərdə tutulmadığı üçün təşkil edilmir.

*3.3.16 Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi işinintəşkili vəziyyəti*

UNEC-in Zaqatala filialında Kurs layihəsinin (işi) və referatların hazırlanması və müdafiəsi Elm və Təhsil Nazirliyinin 09.07.2020-ci ildə F-343 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat səviyyəsinin (əsas (baza) ali tibb təhsilinin) ixtisas üzrə Təhsi Proqramları"nda nəzərdə tutulmadığı üçün təşkil edilmir.

*3.3.17 Buraxılış işi və magistr dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili vəziyyəti*

UNEC-in Zaqatala filialında təhsilin bakalavriat səviyyəsi üzrə tədris aparılır. Təhsialanlar Yekun Dövlət Attestasiyası imtahanında iştirak edirlər.

*3.3.18 İmtahan sessiyasının təşkili vəziyyəti*

UNEC-in Zaqatala filialında imtahan sessiyasının təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"na, Elm və Təhsil Nazirliyinin əmrinə, UNEC rektorunun əmrinə və buna müvafiq olaraq UNEC-in Zaqatala filialının direktorunun əmrinə əsasən təşkil olunur. Müvafiq əmrlə sessiya müddətində imtahan komissiyası, appelyasiya komissiyası, qaynar xətt fəaliyyət göstərir. Tələbələrin appelyasiya müraciətləri operativ şəkildə cavablandırılır. İmtahan sessiyasının nəticələrinə dair hesabatlar hazırlanır, elmi şurada müzakirə edilir və Elm və Təhsil Nazirliyinə göndərilir.

*3.3.19 Yay semestrinin təşkili vəziyyəti*

UNEC-in Zaqatala filialında yay semestrinin təşkili Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”na, UNEC Elmi Şurasının qərarı 31 may 2022-ci 183 qərarına və normativ hüquqi sənədlərə uyğun olaraq həyata keçirilir. Filialda əyani və qiyabi təhsil alan tələbələr yay məktəbinə müraciət etdikləri təqdirdə kifayət qədər tələbə sayı olarsa, yay məktəbi filialda təşkil edilir. Müvafiq fənn üzrə qrup açılması üçün kifayət qədər tələbə müraciəti olmazsa həmin tələbələr UNEC-ə və digər universitetlərə yönləndirilir.

*3.3.20 Kredit borcu olan tələbələrin tədris illəri üzrə dinamikası*




*3.3.21 Kredit borcu yaranmış fənlərin ümumi həcminin tədris illəri üzrədinamikası*



*3.3.22 Tədris prosesi ilə bağlı tətbiq edilən normaların səmərəliliyinin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti*

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 dekabr 2013-cü il tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları"nı və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 noyabr 2010 cu il 215 nömrəli qərarı ilə təsdiq edilmiş təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında qaydalarını illik dərs yükü 500 saatdan az olmamaqla mühazirə, seminar, laborator və praktiki məşğələlərə ayrılan vaxtın həcmi illik dərs yükünün 60 faizindən az olmamaqla bölgüsü həyata keçirilir. Saathesabı verilmiş dərslərin həcminin 240 saatı keçməməsi şərti gözlənilir. Tədrisin təşkili tədris planlarında olan fənlərin sillabuslarına və fənn proqramlarına uyğun olaraq həyata keçirilir. Mühazirə və məşğələ dərsləri 2 akademik saat olmaqla təşkil olunur. Tədris prosesinin təşkili UNEC-in Zaqatala filialında tədris prosesi ilə əlaqədar müvafiq normaların izlənilməsi və təkmilləşdirilməsi prosesi daim davam etdirilir. Bununla yanaşı kafedra tərəfindən açıq dərslər keçirilir, dərslərdə aşkarlanmış nöqsanların aradan qaldırılması istiqamətində müvafiq işlər həyata keçirilir.

*3.4 Tədris metodları və üsulları*

*3.4.1 Təlim nəticələrinin əldə olunmasını təmin edən innovativ, yaradıcı və interaktiv metod və texnologiyalardan istifadə vəziyyəti*

UNEC-in Zaqatala filialında mühazirə və seminar dərsləri ənənəvi və online qaydada keçirilir. UNEC-in Zaqatala filialında dərs prosesində müxtəlif metodlardan istifadə olunur. Xüsusilə seminar dərslərində biliyin qiymətləndirilməsində ənənəvi qaydada tətbiq olunan frontal sorğuyla yanaşı quiz (https://quizizz.com/), kahoot (https://kahoot.com/), Google Forms kimi ınnovativ, yaradıcı və interaktiv metodlardan və proqramlarındanda istifadə olunur.

*3.4.2 Tədris metodlarında tələbəyönümlü, problem yönümlü tədris, səriştə əsaslı tədris, nəzəriyəyə və praktiki tətbiqə əsaslanan tədris yanaşmalarından istifadə vəziyyəti*

UNEC-in Zaqatala filialında Tədris prosesində müxtəlif tədris metodlarından istifadə olunur. Belə ki, təhsilalanlar seminarda qazandıqları aktivlik balını (20 bal) müəllimin təqdim etdiyi tapşırığın (layihə, mövzu üzrə təqdimat, quiz və.s) yerinə yetirilməsi nəticəsində qazanırlar. Bununla yanaşı fənlər üzrə proqramlar kompetensiya əsaslı, nəzəriyyə və praktiki tətbiqləri özündə əks etdirəcək bilik və bacarıqlar üzrə qurularaq həyata keçirilir.

*3.4.3 Tədris metodlarının bütün təhsil formalarında tətbiqinin mümkünlüyü vəziyyəti*

UNEC-in Zaqatala filialında əyani və qiyabi təhsil forması üzrə tədris prosesinin təşkilində Quizizz.com, Google Forms, Kahoot.com və Frontal sorğulardan istifadə olunur. Müasir tədris metodlarını fənlərin spesifikliyindən asılı olaraq daim təkmilləşdirilməsi işləri aparılır.

*3.4.4 Tədris metodlarında daha çox dərindən öyrənmə, maraqlanma, motivasiya olunma və öhdəlik götürmə yanaşmalarının tətbiq edilməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında təhsilverənlər tərəfindən təhsilalanlara verilən tapşırıqların yerinə yetirilməsi zamanı tələbələr tərəfindən araşdırmanın edilməsi və müvafiq tapşırığın yerinə yetirilməsində öhdəlik götürmələri tələb olunur. Bununla yanaşı müasir tədris metodlarından Distant, Hibrid, Modul təlim metodu, Layihə əsaslı öyrənmə təlim metodu, Problem əsaslı öyrənmə təlim metodu, Oyunlar üzrə olan təlim metodu, Case study, Beyin həmləsi, Quizizz, Kahoot, Google forms və s. bu kimi müasir metodlardan müvafiq ixtisaslar üzrə istifadə edilərək təhsilalanların motivasiya edilməsi və müvafiq tapşırıqlar üzrə öhdəlik götürmələrinə şərait yaradılır.

*3.4.5 Tədris səviyyələrindən və tələbənin fərdi xüsusiyyətlərindən asılı olaraq uyğunlaşdırılmış tədris metodlarının və üsullarının tətbiqi vəziyyəti*

UNEC-in Zaqatala filialında həm tədris prosesində həm də qiymətləndirmə mərhələsində təhsilalanların fərdi xüsusiyyətləri, bütün bacarıqları nəzərə alınır və buna uyğun tədris metodlarından istifadə edilir. UNEC-in Zaqatala filialında tədrisin keyfiyyətinin artırılması məqsədilə elektron tribunalar, elektron imtahan zalı yaradılmışdır.

*3.4.6 Tədris prosesinin aktiv öyrənməni təşviq edən texnoloji imkanlar və yanaşmalarla zənginləşdirilməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında elektron universitet idarəetmə sistemi "EDUMAN" qurulmuşdur. Müəllimlər şəxsi kabinetlərinə mühazirə mətnləri, təqdimatlar, test sualları, video və audio materiallar, müvafiq mövzuya digər məlumatları yerləşdirir və təhsilalanlara həmin məlumatların əlçatanlığı təmin olunur.

*3.4.7 Yeni təlim və tədris metodlarının və interaktiv öyrənməni təşviq etmə vəziyyəti*

UNEC-in Zaqatala filialında tədris prosesində interaktiv metodlardan istifadə edilir. Belə ki, yeni təlim, tədris metodlarının və interaktiv öyrənmənin həyata keçirilməsi üçün UNEC-in və filialın müvafiq struktur bölmələrinin iştirakı ilə təhsilalanlara məlumatlar verilir.

*3.4.8 Tədris metod və üsullarının dövrü olaraq monitorinq və preventiv tədbirlərin sistematik olaraq qiymətləndirilməsi və təkmilləşdirilməsi vəziyyəti*

UNEC rektorunun 265/1/2021 nömrəli, 17.11.2021 tarixli və 217/1/2022 nömrəli, 04.10.2022-ci il tarixli əmrləri ilə tədris illəri üzrə monitorinq qrupları yaradılmışdır və həmin əmrdə filial üzrə monitorinq qruplarıda yer almışdır. Həmin monitorinq qrupu tərəfindən hər semestr üzrə keçirilən dərslərin monitorinqi aparılır və aşkar edilmiş çatışmazlıqların aradan qaldırılması istiqamətində preventiv tədbirlər görülür və nöqsanlar aradan qaldırılır.

*3.5 Təlim və tədris resursları*

*3.5.1 ATM-də öyrənmə və tədris ehtiyaclarını tam ödəyə bilən, istifadəçi yönümlü, sinxron və asinxron öyrənmə, həmçinin ölçü və qiymətləndirmə imkanlarına malik olan təlim və tədrisin elektron idarəetmə sisteminin mövcudluğu vəziyyəti*

UNEC Zaqatala filialında 2020- ci ildən etibarən tədris prosesinin elektron idarəetmə sistemi "EDUMAN" elektron universitet modelindən istifadə olunur və tədris prosesi bütövlükdə mövcud sistem tərəfindən idarə edilir. EDUMAN sistemində dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, elektron imtahan sisteminə aid olan EXAM modulu imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apellyasiyanın təşkili, təqaüdün müəyyən olunması prosesi həyata keçirilir.

Eyni zamanda Müəllimlərin (muallim.unec.edu.az) və tələbələrin (kabinet.unec.edu.az) şəxsi kabinetləri mövcuddur. Təhsilalanlar onlara aid müvafiq məlumatları (mühazirə, seminar və.s. materialları) tələbənin şəxsi kabineti bölməsində əldə edə bilirlər. 2020-ci il pandemiya dövründə UNEC-də olduğu kimi, filialda da distant dərslər təşkil edilmişdir.

*3.5.2 ATM-də müasir təlim prosesini aparmaq üçün texnika (proyektorlar, kompüter, ağıllı lövhələr və s) ilə tam təchiz olunmuş auditoriyaların mövcudluğu vəziyyəti*

Filialda 22 tədris auditoriyası (məşğələ və mühazirə) mövcuddur. Bütün auditoriyalarda elektron tribunalar və proyektorlar quraşdırılmış və tədris prosesində aktiv istifadə olunur.

Eyni zamanda 1 linqafon kabineti və 1 kompüter otağı fəaliyyət göstərir. Bununla yanaşı 80 nəfər tələbə tutumlu imtahan zalında 80 komputer və 4 müşahidə kamerası istifadə olunur.

*3.5.3 Tələbənin təlim prosesində iştirakını/aktivliyini qeydə alan tam funksional elektron tədris platformasının və jurnalın mövcudluğu vəziyyəti*

Filialda 2016-cı ildən 2020-ci ilə qədər elektron tədris platforması mövcud olmamış tədris prosesi ənənəvi qaydada təşkil edilmişdir. 2020-ci ildən etibarən EDUMAN sisteminin tərkibində elektron jurnal bölməsi fəaliyyət göstərir. Elektron jurnal vasitəsi ilə ənənəvi dərslərdə tələbələrin davamiyyəti və seminar balı müəllim tərəfindən yazılır.

Online dərslərdə isə tələbə zoom vasitəsi ilə dərsə qoşulduğu zaman avtomatik sistem tərəfindən tələbənin iştirakı qeydə alınır, qiymətləndirməni isə təhsilverən müəllim kabinetində mövcud olan distant jurnal vasitəsi ilə həyata keçirir.

*3.5.4 Tədris prosesi ilə bağlı rəqəmsal xidmətlərin və texniki təminatın təhsil proqramlarına uyğunluğu*

UNEC-də olduğu kimi filialda da "EDUMAN" elektron idarəetmə sistemi vasitəsi ilə təqvim tematik planların yüklənilməsi və buna müvafiq olaraq fənnin sillabusunun, mövzularının yüklənməsi mümkündür.

UNEC-in Zaqatala filialnda "EDUMAN" elektron idarəetmə sisteminin bütün imkanlarından istifadə edilməsi istiqamətində işlər davam etdirilir.

*3.5.5 İnternetə qoşulmuş kompüterlərin və kompüter laboratoriyalarının mövcudluğu vəziyyəti*

Filialda fəaliyyət göstərən 22 tədris auditoriyası və 1 kompüter otağının internetə çıxışı vardır.

*3.5.6 ATM-in auditoriya fondunun (kv m.) onun tələbə sayına uyğunluğu*

UNEC-in Zaqatala filialında ümumilikdə auditoriya fondunun sahəsi 670 kv.m təşkil edir. Növbələr üzrə auditoriya fondunun tələbə sayına uyğunluğu aşağıda təqdim edilən cədvəl formasındadır.

| **Növbələr** | **Tələbə sayına düşən kv.m** |
|---|---|
| I | 1.57 |
| II | 2.27 |
| Qiyabi | 1.08 |

*3.5.7 Akademik və inzibati heyətin fəaliyyətini təmin edən zəruri otaqfondunun inkişaf dinamikası*

UNEC-in Zaqatala filialında 2016-cı ildən, 2017-ci ilə qədər 17 auditoriya mövcud idi və fəaliyyət həyata keçirilirdi. 2021-ci ildə tələbə sayının artması səbəbi ilə auditoriyaların sayı 22-yə çatdırılmış və həmin auditoriyaların tamamı zəruri İKT avandanlıqları ilə təmin olunmuşdur.

*3.5.8 Kitabxananın eyni zamanda (elektron və bilavasitə) müəssisənin tələbəvə akademik heyətinin sayına nisbətdə xidmət imkanlarının artım dinamikası*

28.12.2018-ci il tarixli 1150/3/2018 nömrəli əmr ilə Universitetin Elmi Şurasının 06.12.2018-ci il tarixli EŞ-162 nömrəli qərarının icrasını təmin etmək məqsədi ilə 15.04.2019-cu il tarixində UNEC-in Əsaslı kitabxanasının bazasında Kitabxana-İnformasiya Mərkəzi (KİM) yaradılmışdır.

29 yanvar 2020-ci il tarixində UNEC KİM yeni elektron kitabxanası (library.unec.edu.az) istifadəyə verilmişdir. UNEC-in Zaqatala filialı üzrə təhsilverənlər və təhsilalanların elektron kitabxanadan istifadə etmələri üçün şərait yaradılmışdır.

*3.5.9 ATM-in kitabxana fonduna daxil olan son beş ildə nəşr olunmuş dərslik və dərs vəsaitinin (elektron və çap şəklində) artım dinamikası*

| İllər | Daxil olan kitablar (çap şəklində) |
|---|---|
| 2017 | 283 |
| 2018 | 117 |
| 2019 | 77 |
| 2020 | - |
| 2021 | - |
| 2022 | 189 |

*3.5.10 Tədris dillərinə uyğun kitab fondunun mövcudluğu və artım dinamikası*

UNEC-in Zaqatala filialına daxil olan kitabların tamamı universitetdə həyata keçirilən tədris dillərində (Azərbaycan, ingilis, rus və türk) dərslik və dərs vəsaitləri təşkil edir.

*3.5.11 ATM-də dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası*

UNEC-in Zaqatala filialında dərsliklərin, elmi ədəbiyyatların və elmi bazalardan istifadə üçün ayırılan vəsaitin həcmində artım dinamikası (aznlə) aşağıdakı cədvəldə əks olunmuşdur.

| 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 |
|---|---|---|---|---|---|
| | 49,512 | 500 | 4,504 | 108 | 72 |

*3.5.12 Təlim və tədris resurslarının istifadəsinin və yenilənməsinin monitorinqi vəziyyəti*

UNEC-in Zaqatala filialında 2020-ci ildən etibarən tədris prosesində keyfiyyətin artırılması məqsədilə monitorinq komissiyası fəaliyyət göstərir. Semestr müddətində tədris edilən dərslərin monitorinqi aparılır və nöqsan aşkarlanmış akademik heyətin UNEC tərəfindən təşkil edilən təlimlərə cəlb edilməsi həyata keçirilir.

*3.5.13 Təlim və tədris resurslarının keyfiyyət və kəmiyyət baxımından uyğunluğu və təhsilalanlar üçün əlçatanlığı vəziyyəti*

2016- cı ildən 2020-ci ilə qədər tədris materialları (mühazirə, təqdimat, seminar və.s) şəxsi e-mail vasitəsi ilə təhsilverənlər tərəfindən təhsilalanlara göndərilirmişdir. 2020- ci ildən etibarən bütün fənlər üzrə fənnin tədris materialları-sillabus, mühazirə mətnləri, təqdimatlar və digər dərsliklər müəllimin şəxsi kabinetinə ( muallim.unec.edu.az ) yerləşdirilir və tələbələr istədiyi zaman həmin materialları şəxsi kabinetləri (kabinet.unec.edu.az) vasitəsilə istifadə etmək imkanına malikdirlər.

*3.5.14 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris resurslarının mövcudluğu vəziyyəti*

Sağlamlıq imkanları məhdud tələbələrin dərslərə inteqrasiyasını təmin etmək məqsədilə məşğələ-mühazirə, imtahan sessiyasında tələbələrin (təsdiqedici sənədlər tələb edilməklə) sağlamlıq vəziyyətləri nəzərə alınır. Eyni zamanda imtahan prosesində həmin tələbələrə elektron vasitələrdən istifadə zamanı ali təhsil müəssisəsi əməkdaşlarının köməyi təmin edilir.

*3.5.15 Təlim və tədris resurslarının davamlı olaraq təkmilləşdirilməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında 2021-ci ildən etibarən monitorinq qrupu fəaliyyət göstərir. Monitorinqlərin nəticəsi olaraq tədris materiallarının (sillabus, mühazirə mövzuları, təqdimatların və.s.) beynəlxalq standartlara uyğunlaşdırılması və təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir.

*3.5.16 Tələbə klublarının, tələbələrin sosial, mədəni və idman fəaliyyətləri üçün resursların (inzibati və büdcə resrursları), dəstək planlarının mövcudluğu*

UNEC-in Zaqatala filialında sosial, mədəni və idman fəaliyyətlərinin həyata keçirilməsi üçün 4 tələbə təşkilatı Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifakı Komitəsi, İqtisadçı Vətənpərvərlər Təşkilatı, Tələbə Elmi Cəmiyyəti fəaliyyət göstərir.

*3.5.17 Psixoloji məsləhət xidmətlərinin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında pisxoloji məsləhət xidməti olaraq tyutor və qruplar üzrə təyin olunmuş mentorlar fəaliyyət göstərir.

*3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi*

*3.6.1 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi ilə bağlı prosedur və qaydaların mövcudluğu vəziyyəti.*

UNEC Zaqatala filialında təhsilalanların biliyinin qiymətləndirilməsi Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 348 saylı qərarının tələbləri gözlənilməklə, UNEC Elmi Şurasının qərarı ilə tənzimlənir. Ümumilikdə qiymətləndirmə cari və aralıq qiymətləndirmə mərhələlərindən ibarət olmaqla 100 ballıq sistemlə həyata keçirilir. Belə ki, 100 ballıq qiymətləndirmənin 50 balı imtahana qədər, növbəti 50 bal isə sessiya imtahanında qazanılır. Təhsilalan normativ təhsil müddətində tədris planınında nəzərdə tutulmuş bütün fənlərin kreditlərini qazandıqdan sonra Yekun Dövlət Attestasiyası (YDA) imtahanına buraxılır. YDA imtahanı mərkəzkəşdirilmiş formada test üsulu ilə keçirilir.

*3.6.2 Qiymətləndirmə meyarlarının ölçüləbilən və etibarlı olması vəziyyəti*

UNEC-in Zaqatala filialında bilik və bacarıqların qiymətləndirilməsi "Kredit sistemi ilə təhsil alan tələbələrin biliyinin qiymətləndirilməsi haqqında ƏSASNAMƏ" ilə müəyyən edilən meyarlara əsaslanır. Biliyin qiymətləndirilməsi "Xarici dildə işgüzar və akademik kommunikasiya" fənni üzrə 4 bacarıq üzrə kombinələşdrilmiş üsulla, digər bütün fənlərdə isə test üsulu ilə mərkəzləşdirilmiş qaydada həyata keçirilir.

*3.6.3 Qiymətləndirmədə müxtəlif formalarından (üz-üzə, məsafədən, qarışıq, açıq və s.) metod və vasitələrdən istifadə olunması vəziyyəti*

UNEC-in Zaqatala filialında bilik və bacarıqlarının qiymətləndirilməsinin üz-üzə, məsafədən keçirilməsi üçün lazım olan texniki imkanlar vardır. Xüsusilə pandemiya dövründə biliyin qiymətləndirilməsi mövcud texniki imkanlar vasitəsilə məsafədən həyata keçirilmişdir. Əsasən biliyin qiymətləndirilməsi filialda fəaliyyət göstərən elektron imtahan zalında və auditoriyalarda həyata keçirilir.

*3.6.4 Qiymətləndirmədə ədalətliliyin, obyektivliyin, şəffaflığın təmin olunması və qiymətin əsaslandırılması vəziyyəti*

UNEC-də olduğu kimi Zaqatala filialında da imtahanlar mərkəzləşdirilmiş qaydada test üsulu ilə imtahan zalında kompüter vasitəsilə həyata keçirilir. Bu prosesdə şəffaflığın və ədalətliliyin təmin olunması üçün elektron sistem vasitəsilə imtahan

zamanı təhsilalanlara avtomatik 50 test təqdim olunur və həmin testlər üzrə imtahanlarını bitirdikdən sonra təhsilalan nəticəsi ilə tanış ola bilir. Şəffaflığın təmin edilməsi və appelyasiya müraciətinə şəraitin yaradılması məqsədilə imtahan bitdikdən sonra həmin testlər sistem tərəfindən təhsilalanın şəxsi kabinetinə göndərilir. Mövcud imtahanlar zamanı ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim edilən imtahan sual variantlarının məxfiliyi təmin edilir. Fənn üzrə imtahanların eyni saatda keçirilməsi mümkün olduğu halda imtahanda iştirak edən tələbələrin hamısına eyni imtahan sual variantı təqdim edilir. İmtahanlar fərqli növbələrdə keçirildiyi zaman isə hər bir növbə üzrə fərqli imtahan sual variantı təqdim olunur. Bununla yanaşı olaraq təhsilalanlara eyni imtahan saatında bir neçə imtahan sual variantının təqdim edilməsi təcrübəsindən də istifadə edilir.

*3.6.5 Qiymətləndirmədə təhsilalanların özünüqiymətləndirmə bacarığının formalaşması, sərbəst öyrənmə istəyinin yaradılması və təlimin keyfiyyətinin yüksəldilməsinə nail olunması amillərinin nəzərə alınması vəziyyəti*

UNEC-in Zaqatala filialında özünüqiymətləndirmə bacarığının formalaşdırılması əsasən seminar dərslərində həyata keçirilir. Belə ki, seminar dərslərində müəllimlər tərəfindən qrup daxilində bir neçə qrup yaradılır, müvafiq mövzu əsasında suallar verilir. Yaradılmış qruplar tərəfindən həmin sualların təqdimatı edilir, həm tələbələr, həmdə müəllim tərəfindən qiymətləndirmə həyata keçirilir.

*3.6.6 Qiymətləndirmədə informasiya kommunikasiya texnologiyalarının nailiyyətlərindən istifadə vəziyyəti*

UNEC-in Zaqatala filialında 2020-ci ildən etibarən təhsilin elektron idarəetmə sistemi-“EDUMAN” və elektron imtahan sistemi-“EXAM” platformaları fəaliyyət göstərir. Qiymətləndirmə zamanı həmin platformaların modullarından istifadə edilir.

*3.6.7 Sağlamlıq imkanları məhdud şəxslərə münasibətdə xüsusi qiymətləndirmə üsullarından istifadə vəziyyəti*

Sağlamlıq imkanları məhdud tələbələrin dərslərə inteqrasiyasını təmin etmək məqsədilə məşğələ-mühazirə, imtahan sessiyasında tələbələrin (təsdiqedici sənədlər tələb edilməklə) sağlamlıq vəziyyətləri nəzərə alınır. İmtahan prosesində həmin tələbələrə elektron vasitələrdən istifadə zamanı ali təhsil müəssisəsi əməkdaşlarının köməyi təmin edilir.

*3.6.8 Cari və aralıq qiymətləndirmələrin müvafiq fənlərin spesifikliyi nəzərə alınaraq şəffaflıq, ədalətlilik və rəqabətlilik prinsipləri əsasında təşkil olunması vəziyyəti*

UNEC-in Zaqatala filialında cari və aralıq qiymətləndirmə test üsulu ilə mərkəzləşdirilmiş qaydada elektron formada keçirilir. Həmin imtahanlarda ədalətliliyin təmin olunması üçün tələbələrə təqdim olunan testlər kompüter vasitəsilə seçilir. İmtahanlarda insan faktoru minimum səviyyədə olduğu üçün şəffaflıq və obyektivlik tam təmin olunur. Bununla yanaşı nəticəsindən narazı olan tələbələrin appelyasiyaya müraciət etməsi üçün müvafiq şərait yaradılır və müəllim və appelyasiya komissiyasının üzvlərinin iştirakı ilə müraciətə baxılır.

*3.6.9 Yekun Dövlət Qiymətləndirilməsinin təşkilinin sahə üzrə tənzimləyici hüquqi sənədlərə uyğunluğu vəziyyəti (yekun dövlət imtahanı və/ və ya buraxılış işi və dissertasiya işinin müdafiəsinin təşkili)*

UNEC-in Zaqatala filialında Yekun Dövlət Attestasiyası (YDA) imtahanı Azərbaycan Respublikası Nazirlər Kabinetinin 24 iyun 2010-cu il № 117 saylı qərarı ilə təsdiqlənmiş "Bakalavriat *(əsas (baza ali) tibb təhsili)* təhsilinin məzmunu və təşkili Qaydaları", Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 24 dekabr tarixli 348 nömrəli qərarı ilə təsdiq edilmiş "Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili" Qaydalarına uyğun həyata keçirilir. Yekun dövlət attestasiyası "Azərbaycan Respublikası ali təhsil müəssisələri tələbələrinin bakalavr pilləsində dövlət attestasiyası haqqında əsasnamə" ilə müəyyən edilən qaydalar və tələblər əsasında həyata keçirilir.

Filialda Yekun Dövlət qiymətləndirməsi Yekun Dövlət Attestasiyası (YDA) imtahanı formasında həyata keçirilir. YDA imtahanı mərkəzləşdirilmiş qaydada test üsulu ilə keçirilir.

*3.6.10 Bilik və bacarıqların qiymətləndirilməsi sistemi üzrə təhlillərin aparılması, proseslərin izlənilməsi və təkmilləşdirilməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında hər semestrin sonunda EXAM elektron sistem vasitəsilə təhsilalanların yekun nəticələri əldə edilir. Aşağı nəticə göstərilmiş

fənlərdə müvəffəqiyyət və keyfiyyət faizinin artırılması istiqamətində təhlillər aparılır və müvafiq tədbirlər həyata keçirilir.

*3.6.11 Təhsil səviyyəsinin bitirilməsi qaydalarının və şərtlərinin sadə, aydınvə başa düşülən formada olması və tələbələr üçün əlçatan olması*

UNEC-in Zaqatala filialına qəbul olmuş təhsilalanlar təhsil müəssisəsiylə müqavilə bağladıqları zaman ümumi təhsil haqqında qanunvericilik, tədrisin təşkili, kredit sisteminin tələbləri, həmçinin təhsil səviyyəsini bitirmək üçün müvafiq qaydalar haqqında məlumatlar verilir. Bununla yanaşı EDUMAN sisteminin tərkibində bütün tələbələrin şəxsi kabinetləri (kabinet.unec.edu.az) mövcuddur. Təhsilalanlar şəxsi kabinetlərində akademik borclarını, transkriptlərini və digər zəruri məlumatları görə bilirlər ki, bu da onlara bütün məlumatların əldə edilməsini əlçatan edir. Təhsilalanlar məzun ola bilməsi üçün 240 kredit toplamalarının zəruriliyi haqqında məlumatları şəxsi kabinetlərindən əldə etmək imkanına malikdirlər.

*3.6.12 Təhsil səviyyəsini bitirən məzunlara dövlət təhsil sənədinin və ya təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə müavafiq arayışın verilməsinin qanunvericiliyin tələblərinə uyğunluğu*

UNEC-in Zaqatala filialını bitirən məzunlara Azərbaycan Respublikası Nazirlər Kabinetinin 29.04.2010-cu il tarixli 82 nömrəli qərarı ilə təsdiq edilmiş "Təhsil haqqında dövlət sənədlərinin nümunələri və onların verilməsi Qaydaları"na əsasən bakalavr diplomu və diploma əlavələr verilir. UNEC-in Zaqatala filialında təhsil səviyyəsini uğurla bitirməyən şəxslərə Nazirlər Kabinetinin 21.01.2010-cu il tarixli 12 nömrəli qərarı ilə təsdiq edilmiş "Müxtəlif səbəblərdən təhsilin hər hansı pilləsini və səviyyəsini başa vurmayan şəxslərə arayışın verilməsi "Qaydası"nın 1 nömrəli əlavəsində verilmiş formaya uyğun olaraq müvafiq arayış verilir

*3.7 Professor-müəllim heyəti*

*3.7.1 Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinat mexanizminin mövcudluğu və tətbiq edilən yanaşmanın şəffaf və ictimaiyyət üçün əlçatanlığı vəziyyəti*

UNEC-in Zaqatala filialında Akademik heyətin işə qəbulu, yüksəliş və digər vəzifəyə təyinatı "Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları"nın tətbiqi barədə Azərbaycan Respublikası Elm

və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 №-li əmri və Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 №-li əmrinin 1 №-li Əlavəsi ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə uyğun və eyni zamanda UNEC-in gənc müəllim layihələri və ingilis dili müəllimləri üçün isə müsahibə vasitəsilə həyata keçirilir.

*3.7.2 Akademik heyətin pedaqoji və texnoloji səriştələrinin yüksəldilməsini stimullaşdıran meyarlarının mövcudluğu vəziyyəti*

Akademik heyətin elmi-pedaqoji və texnoloji fəaliyyətinin qiymətləndirilməsi üçün stimullaşdırıcı meyarlardan istifadə olunur. Onlar müəyyən edilmiş qaydada dövlət təltifinə təqdim olunmaq barədə məsələ qaldırmaqla və digər həvəsləndirmə vasitələri ilə mükafatlandırılırlar. Bununla yanaşı yeni işə qəbul olan əməkdaşlar üçün tədrisin elektron idarə edilməsi, “EDUMAN” sistemində fəaliyyət göstərməklə bağlı təlimlər keçirilir.

*3.7.3 Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlərin keçirilməsi vəziyyəti*

Akademik heyətə interaktiv və aktiv tədris metodlarının, distant tədris proseslərinin tətbiqinə yönəlmiş sistemli təlimlər keçirilir. UNEC-in Zaqatala filialının əməkdaşları pandemiya dönəmində distant dərslərin təşkili ilə əlaqədar olaraq UNEC tərəfindən təşkil edilmiş təlimlərdə iştirak etmişlər.

*3.7.4 Akademik heyətə öz ixtisas sahələrinə aid ixtisasartırma və və digər təlim kurslarında iştirakı vəziyyəti*

UNEC-in Zaqatala filialının akademik heyəti ixtisas sahələri üzrə 2020-ci ildən etibarən UNEC-in təşkil etdiyi təlimlərdə iştirak edirlər.

*3.7.5 Akademik heyətin beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirakı vəziyyəti*

ATM-də Akademik heyət beynəlxalq səviyyəli peşəkar inkişaf proqramlarında iştirak edir. (Filialın müəllimi Əlizadə Nərmin Əsədullah qızı 16.12.2019-cu il tarixdən 14 təqvim günü müddətinə Mevlana mübadilə proqramında iştirak etmək üçün Türkiyə Respublikasında ezamiyyətdə olmuşdur). Bununla yanaşı UNEC-in

Zaqatala filialın da çalışan müəllimlər 2017-2019-cu illərdə UNEC-in Quba mərkəzində təşkil edilmiş təlimlərdə iştirak etmişlər.

*3.7.6 Akademik heyətin yaradıcı və innovativ tədris bacarıqlarının qiymətləndirilməsi sisteminin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında professor-müəllim heyətinin nüfuzlu elmi nəşrlərdə əsərləri, məqalələri dərc edilən əməkdaşlarının mükafatlandırılması Qaydaları vasitəsilə akademik heyətin yaradıcı və innovativ tədris bacarıqları qiymətləndirilir.

*3.7.7 Ştatda olan və cəlb olunan akademik heyət arasında dərs yükünün bölgüsündə dürüst və şəffaf meyarların mövcud olması vəziyyəti*

UNEC-in Zaqatala filialında dərs yükünün bölgüsü 24 noyabr 2010-cu il 215 saylı "Təhsil müəssisələrinin pedaqoji işçilərinin dərs yükü normalarının müəyyən edilməsi haqqında" Azərbaycan Respublikasinin Nazirlər Kabinetinin qərarı ilə tənzimlənir. Dərs yükünün bölgüsündə ixtisas istiqaməti, obyektivlik və şəffaflıq təmin olunur.

*3.7.8 Fakültə üzrə professor-müəllim heyətinin tələbə sayına nisbəti vəziyyəti(1/15)*

Filial üzrə əsas iş yeri filial olan professor-müəllim heyətinin sayının (33) tələbə sayına (1381) nisbəti 1/42, əsas iş yeri filial olan və əvəzçiliklə cəlb olunmuş professor-müəllim heyətinin sayının (39) tələbə sayına (1381) nisbəti 1/35, əsas iş yeri filial olan, əvəzçiliklə və saat hesabı qaydada tədrisə cəlb olunmuş professor-müəllim heyətinin sayının (40) tələbə sayına (1381) nisbəti isə 1/35təşkil edir.

*3.7.9 Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 70 faizindən çoxunun əsas iş yeri müvafiq ATM olması vəziyyəti*

Tədris prosesində iştirak edən professor-müəllim heyətinin 85% i filial əməkdaşıdır. Belə ki, filialda 39 nəfər ştatda və 1 nəfər saathesabı qaydada pedaqoji fəaliyyətlə məşğul olan akademik heyətin 33 nəfərinin əsas iş yeri filialdır.

*3.7.10 Kənardan cəlb edilən professor-müəllim heyətinin zəruriliyi*

Yeni ixtisaslar üzrə mütəxəssislərə və praktik biliklərə malik kadrlara olan ehtiyac ölkənin əmək bazarından professor-müəllim heyətinin cəlb edilməsini zəruri edir.

*3.7.11 Akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sisteminin tətbiqi vəziyyəti*

UNEC-in Zaqatala filialında akademik heyətə qiymətləndirmə meyarları əsasında differensiallaşdırılmış əməkhaqqı sistemi tətbiq edilməmişdir. Hal-hazırda UNEC-də tətbiq edilən differensial əməkhaqqı sisteminin gələcəkdə filialda da tətbiq olunması nəəzərdə tutulmuşdur.

*3.7.12 Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və / və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin mövcudluğu vəziyyəti*

Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı çərçivəsində təhsil almış və ya xarici ölkələrin nüfuzlu ali təhsil müəssisələrindən məzun olmuş professor-müəllim heyətinin sayı 5 nəfərdir.

*3.8 Tələbəyönümlü tədris*

*3.8.1 Təhsilalanın fərdi tədris planının tərtib edilməsində iştirak etməsi*

“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 3.3 bəndinə əsasən təhsil müəssisəsi tərəfindən tədris ilinin başlanğıcına qədər Fərdi tədris planı tərtib edilir. Fərdi tədris planları tələbələrin iştirakı ilə hər tədris ili üçün ixtisasın tədris qrafiki əsasında tərtib edilir. Bu zaman fənlərin prerekvizitliyi gözlənilir, akademik məsləhətçinin (tyutorun) köməyindən istifadə olunur. Növbəti tədris ili üçün tələbənin fərdi tədris planı tərtib olunarkən ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir. Təhsilalan sentyabrın 10-dək fərdi tədris planında düzəlişlər edə bilər. Növbəti tədris ilində isə tələbələr öz fərdi tədris planını hazırlayır və iyulun 5-dən 15-dək fakültəyə təqdim edir.Tələbənin fərdi tədris planında sonradan dəyişiklik edilməsinə icazə verilmir. Yalnız payız semestrindən akademik borcu qalanlar qış tətilinin ilk həftəsində növbəti semestr üçün fərdi tədris planlarında ali təhsil müəssisəsi tərəfindən müəyyən olunmuş qaydada müvafiq düzəlişlər edə bilərlər.

*3.8.2 Tədris planlarında ixtisas üzrə təklif olunan seçmə fənlərin tələbələr tərəfindən seçiminin sərbəstliyinin təmin edilməsi*

İxtisas üzrə təklif olunan seçmə fənlərin müəyyən edilməsində tələbələrin seçim sərbəstliyi təmin edilir. Növbəti tədris ili üçün ixtisaslar üzrə illik işçi tədris planı təsdiq edilərkən seçmə fənn bloku üzrə təklif olunan fənlərin seçimi zamanı tələbələrin seçdiyi fənn əsas götürülür. Növbəti tədris ili üçün tələbənin fərdi tədris planı tərtib olunarkən, bura ilk növbədə əvvəlki ildən akademik borcu qalan fənlər daxil edilir.

*3.8.3 Təhsilverənlərin və akademik məsləhətçilərin (tyutorların) tələbələr tərəfindən Bolonya prinsipinə uyğun olaraq seçiminin sərbəstliyinin təmin edilməsi*

Təhsilverənlərin və akademik məsləhətçilərin tələbələr tərəfindən seçim sərbəstliyi təmin edilir, eyni zamanda bu prosesdə ali təhsil müəssisəsinin kadr imkanları nəzərə alınır.

*3.8.4 Tələbə və məzunlar arasında keçirilmiş rəy sorğusunun istiqamətləri, intensivliyi və səmərəliliyinin inkişaf dinamikası*

UNEC-in Zaqatala filialının tələbə və məzunları UNEC tərəfindən təşkil edilmiş bir sıra sorğularda iştirak edirlər. Bununla yanaşı mütəmadi olaraq filialdada təhsilalanlar (https://forms.gle/rb9YqbuMbogQz3oq7) və məzunlar (https://forms.gle/hxTyzp4MYmjcLq9A9 ) arasında sorğular keçirilir və həmin sorğuların nəticələrinə uyğun olaraq müvafiq tədbirlər görülür.

*3.8.5 ATM-də tələbə və məzunların təklifləri əsasında tətbiq olunmuş yeniliklərin (qərarların) inkişaf dinamikası*

ATM-də mütəmadi olaraq şifahi və googleform üzərindən sorğular keçirilir. Həmin sorğularda təhsilalanların və məzunların təklifləri nəzərə alınır. Bununla yanaşı UNEC-in Zaqatala filialının elmi şurasında Tələbə təşkilatlarının rəhbərləri ( TEC, TGT, THİK ) təmsil olunurlar və tələbələri maraqlandıran müzakirələrdə, verilmiş qərarlarda iştirak edirlər.

*3.8.6 Tələbə rəylərinin (akademik heyət, xidmətlərin keyfiyyəti və ümumi məmnunluq səviyyəsi və s. haqqında) müxtəlif vasitələrlə sistemli şəkildə toplanması və qərarvermə proesesində istifadə edilməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında təhsilalanlarla mütəmadi olaraq sorğular həyata keçirilir. Sorğuların nəticəsi ümumi qərarvermə prosesində nəzərə alınır. Eyni zamanda təhsilalanların hər birinin şəxsi kabinetlərində “məmmunluq anketi” bölməsi mövcuddur və gələcəkdə filial tələbələrinin həmin bölmədən istifadə etmək imkanına malikdirlər.

*3.8.7 Təhsilalanların şikayət və/və ya təklifləri üçün müxtəlif vasitə və mexanizmlərin mövcudluğu vəziyyəti*

Təhsilalanlar şəxsi kabinetləri vastəsi ilə həm məmmunluq anketində iştirak edə bilər, həmdə imtahan prosesində narazı olduğu suallar üzrə apellyasiyaya müraciət edə bilər. Bundan əlavə UNEC-in rəsmi saytına (unec@unec.edu.az), sosial şəbəkə hesablarına (facebook, instagram, teleqram və s.) həmçinin filialın korporativ e-mail ünvanına müraciət edə bilər.

*3.8.8 Təhsilalanların inkişafına nəzarət edən və akademik problemlərin həllində dəstək göstərən müvafiq kvalifikasiyalara sahib akademik məsləhətçilərin (tyutor) mövcudluğu vəziyyəti*

“Ali təhsil müəssisələrinin bakalavriat və magistratura səviyyələrində, əsas (baza ali) tibb təhsilində və Azərbaycan Milli Elmlər Akademiyasının magistratura səviyyəsində kredit sistemi ilə tədrisin təşkili Qaydaları”nın 5 bəndinə əsasən ali təhsil müəssisəsində akademik məsləhətçi( tyutor) xidmətindən istifadə olunur. Tyutorlar bu sahədə müəyyən təcrübəsi və səriştəsi olan ali təhsilli şəxslər arasından seçilir, onlara müvafiq təlimlər keçirilir. Tyutorlar təhsilalnların hüquqlarını, akademik maraqlarını qoruyur və fərdi tədris planlarının hazırlanmasında köməklik göstərir.

*3.8.9 Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında müxtəlif vasitələrlə (üzbəüz, onlayn və s.) kommunikasiyanın həyata keçirilməsi vəziyyəti*

Tələbələr və təhsilverənlər, eləcə də tələbələr və akademik məsləhətçilər (tyutorlar) arasında kommunikasiyanın təmin edilməsi məqsədilə üzbəüz eyni zamanda zoom platforması üzərindən görüşlər keçirilir. Əlçatanlığı, sürətliliyi və səmərəliliyi təmin etmək məqsədilə şəxsi kabinetlər, Whatsapp qrupları vasitəsi ilə kommunikasiya yaradılır. Bununla yanaşı 2022-ci ildə “EDUMAN” sistemində yeni kommunikasiya

modulu yaradılmışdır. Komunikasiya modulu vasitəsilə müəllim-tələbə arasında, tələbə-tələbə arasında, əməkdaş-əməkdaş arasında kommunikasının qurulması həyata keçirilir.

*3.8.10 Sağlamlıq imkanları məhdud şəxslərin cəmiyyətə inteqrasiyası meyarlarının tədris prosesində nəzərə alınması vəziyyəti*

Sağlamlıq imkanları məhdud tələbələrin dərslərə inteqrasiyasını təmin etmək məqsədilə məşğələ-mühazirə, imtahan sessiyasında tələbələrin (təsdiqedici sənədlər tələb edilməklə) sağlamlıq vəziyyətləri nəzərə alınır. İmtahan prosesində həmin tələbələrə elektron vasitələrdən istifadə zamanı ali təhsil müəssisəsi əməkdaşlarının köməyi təmin edilir.

*3.8.11 Sosial həssas qrupa aid edilən tələbələrin təhsil xidmətlərinə əlçatanlığı vəziyyəti*

UNEC-in Zaqatala filialında sosial həsass qrupa aid edilən tələbələrin təhsil haqları Azərbaycan Respublikası Nazirlər Kabinetinin 13 aprel 2020-ci il tarixli 138 saylı qərarına əsasən həyata keçirilir. Normativ təhsil müddətində ödənişli əsaslarla əyani təhsil alan (təkrar ali və orta ixtisas təhsili istisna olmaqla) və sosial baxımdan həssas əhali qrupuna aid edilən ailələrin üzvü olan tələbələrin 2020-ci ildə tədris semestrləri üçün təhsil haqqı xərcləri dövlət büdcəsinin vəsaiti hesabına ödənilməsi təmin olunmuşdur.

*3.8.12 Təhsilalanlara ATM tərəfindən təqaüd imkanının yaradılması vəziyyəti*

Təqaüd almaq hüququnu qazanmış tələbələrə təqaüdlər semestr üzrə imtahan nəticələrinə əsasən, fənər üzrə göstəricilərinə görə müəyyənləşdirilir. Tələbənin təqaüd alma hüququ AR prezidentinin müvafiq sərəncamı, AR Nazirlər Kabinetinin qərarları və UNEC-in daxili qərarları əsasında keçirilir. Belə ki, filialda tədris semestrləri üzrə ən yüksək ÜOMG olan 3 nəfər tələbəyə UNEC rektorunun təsis etdiyi rektor təqaüdü verilir.

*3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi*

*3.9.1 Təhsil proqramlarının monitorinqi strategiyasının və fəaliyyət planının mövcudluğu.*

UNEC rektorunun müvafiq əmri ilə 2021-ci ildən etibarən filialda monitorinq qrupları fəaliyyət göstərir. UNEC-in Zaqatala filialında keçirilən monitorinqin nəticələri müzakirə olunur, müşahidə olunan çatışmazlıqların aradan qaldırılması istiqamətində müvafiq tədbirlər görülür.

*3.9.2 Təhsil proqramları üzrə təlim nəticələrinin əldə edilməsinə nəzarət imkanlarının mövcudluğu*

Təhsil proqramlarında mövcud olan yeni fənlər üzrə UNEC-də xarici və yerli mütəxəssislərin iştirakı ilə təlimlər təşkil edilir və həmin təlimlərin nəticələrinə uyğun olaraq yeni fənlərin proqramları və sillabuslar hazırlanır.

*3.9.3 Təhsil proqramlarının monitorinqinin faydaları və onların daxili keyfiyyət təminatı sisteminə töhfəsinin qiymətləndirilməsinin aparılması vəziyyəti*

UNEC-in Zaqatala filialında daxili keyfiyyət təminatı sistemi Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlara (ESG 2015) uyğun həyata keçirilir.

*3.9.4 Təhsil proqramlarının illik özünüqiymətləndirmə hesabatlarının hazırlanması vəziyyəti*

UNEC-in Zaqatala filialında tədris ilinin sonunda yekun hesabat hazırlanır, müvafiq struktur bölmələrin rəhbərliyi tərəfindən filialın Elmi Şurasında müzakirə edilir. Özünüqiymətləndirmə hesabatlarında tədris prosesinin təşkili və imtahan sessiyasının nəticələri öz əksini tapır.

*3.9.5 Təhsil müəssisəsində tədris olunan təhsil proqramlarının əmək bazarının və cəmiyyətin tələblərinə uyğun yenilənməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında tədris olunan ixtisasların təhsil proqramları UNEC-in müvafiq işçi qrupu tərəfindən hazırlanır. Yeni təhsil proqramları hazırlanarkən əmək bazarının nümayəndələrinin təklif və tövsiyələri nəzərə alınır.

## *3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi*

*3.10.1 Karyera mərkəzinin mövcudluğu vəziyyəti*

Azərbaycan Dövlət İqtisad Universitetinin rektorunun 751/3/2016 saylı 2 noyabr 2016-cı il tarixli əmrinə əsasən Karyera Mərkəzi yaradılmışdır. UNEC Zaqatala filialı olaraq UNEC-in Karyera Mərkəzində verilən səlahiyyətlər çərçivəsində ali

təhsilin bütün səviyyələrində təhsilalanların və məzunların karyera inkişafında və məşğulluqlarının tənzimlənməsində paralel fəaliyyət göstərir.

*3.10.2 Tələbə və məzunlara karyera məsləhət xidmətlərinin göstərilməsivəziyyəti*

UNEC Zaqatala filialı 2020-ci i ildən etibarən tələbə və məzunlara karyera məsləhət xidmətini həyata keçirir. Məsləhət xidmətində əsasən (CV hazırlanması, peşəkar iş həyatına hazırlıq, uğurlu məzunlarla görüş, şirkətlərdə təcrübə proqramına hazırlıq və cəlb olunma və digər) fəaliyyətlər aiddir. UNEC Zaqatala filialı tələbələri müxtəlif Startap, Texnofest yarışlarında fəal iştirak etmişlər. Belə ki, filialın İnformasiya texnologiyaları və Maliyyə ixtisası üzrə I kurs tələbələri “Filadelfiya” komandası olaraq TEXNOFEST Azərbaycan festivalında 40 rəqib komanda arasında ilk üçlükdə yer tutmuşlar. UNEC Zaqatala filialı tələbələri 2019-cu ildə Zaqatala şəhəri üzrə Startap turunun qalibləri olmuşlar. Filialın tələbələri müsabiqədə “Səyyar kinoteatr” , “Tourisim Education Center” və “Eventus Under Stars” layihələri üzrə müvafiq olaraq I, II və III yerlərə layiq görülüblər. UNEC Zaqatala filialı Zaqatala İqtisad Məktəbinin İnformasiya texnologiyaları ixtisasının II kurs tələbəsi Sultanov Məhəmməd və onun komandası Beynəlxalq SAF-STEAM-2022 Azərbaycan festivalında Dreamworld katiqoriyası üzrə II yerin sahibi olmuş, Bu nəaliyyət ilə yanaşı bəhs edilən komanda Fredlyi Team 2022 dostluq nominasiyası üzrə qalib gəlmişdir.

*3.10.3 Məzunların əmək bazarında iştirakının izlənilməsi mexanizmlərinin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialı məzunlarla əlaqəni bir neçə istiqamətdə qurur. Belə ki, mütəmadi olaraq məzun olmuş bütün tələbələrlə əlaqə saxlanılır, vakansiyalarla bağlı məlumatlar yönləndirilir və ixtisasları ilə bağlı necə iş tapmaları barəsində görüşlər təşkil olunur. Universitetin məzunu olmuş tələbələrlə və eyni zamanda tələbələrin bir-biriləri ilə işgüzar əlaqəsinin təmin olunması üçün sosial-şəbəkə platformaları yaradılmışdır. Məzunlar birliyinin qurulması ilə bağlı işlər davam etdirilir. UNEC-də və Azərbaycan universitetlərinin tarixində ilk dəfə 28,29 iyun tarixlərində keçirilən XIV UNEC Karyera Yarmarkasında Virtual “Endless Fairs” Karyera platforması yaradıldı və Yarmarkada UNEC Zaqatala filialının tələbələri iştirak etmişdir.

*3.10.4 Məzunların təhsil proqramı çərçivəsində əldə etdiyi səriştələrindən və təhsil proqramının keyfiyyət səviyyəsindən məmnunluğunun ölçülməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında məzunların təhsil aldıqları müddətdə təhsil proqramı çərçivəsində əldə etdikləri nəzəri biliklərin, məzun olduqdan sonra karyera quruculuqlarındakı rolunun araşdırılması məqsədilə mütəmadi olaraq sorğular keçirilmişdir (https://forms.gle/hxTyzp4MYmjcLq9A9). Sorğu (məzunların təhsil aldıqları müddətdə əldə etdikləri biliklərin hazırki iş həyatındakı rolu yaxud çatımazlığı, fənlərlə bağlı rəylərin öyrənilməsi üzrə) sualları əhatə edir. Bununla yanaşı əməkdaşlıq olunan Fəxri məzunlara e-mail vasitəsilə Sorğu göndərilərək geri dönüş edənlərin sorğu cavabları təhlil edilir.

*3.10.5 Məzunlarla davamlı əlaqə sisteminin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialının məzunlarıyla davamlı əlaqə saxlamaq üçün EDUMAN elektron informasiya sistemində mövcud olan e-mail ünvanları və sosial şəbəkə qruplarından istifadə olunur.

## 4. ELMİ TƏDQİQAT

*4.1 Elmi-tədqiqat strategiyası*

*4.1.1. Elmi-tədqiqat strategiyasının mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialı bölgənin elm və təhsil sahəsində inkişafını təmin etmək sahəsində fəaliyyət gtöstərir. UNEC Zaqatala filialınnda elmi tədqiqatların əsas hədəfləri müasir iqtisad elminin aktual problemlərinin, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi mexanizmlərinin və ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsində fənlərarası inteqrasıyanın və innovasiyaların rolunun araşdırılmasıdır. Bu tədqiqatların sonunda praktikada uyğun sahələrdə effektiv nəticələrin alınması gözlənilir və bu bizim strateji hədəfimizdir. Elmi–tədqiqat strategiyasının həyata keçirilməsində seminar, elmi-praktik konfrans və i.a. tədbirlərin də rolu böyükdür. Filial olaraq UNEC-in elmi jurnallarından və virtual iqtisadi forumundan istifadə edirik. Elmi tədqiqatların stimullaşdırılması məqsədilə filialın professor-müəllim heyəti milli və beynəlxalq donor təşkilatlarının qrantları, ayrı-ayrı dövlət və özəl şirkətlərin sifarişləri əsasında elmi-tədqiqat layihələri həyata keçirmək istiqamətində çalışırlar. Onlar həmçinin, Web of Science, Scopus və i.a kimi nüfuzlu elmi bazalara daxil olan nəşrlərdə çap olunmaq üçün səy göstərirlər. UNEC Zaqatala filialında elmi-tədqiqat sahəsində strategiyanın işlənməsi və həyata keçirilməsinə rəhbərlik kimi aşağıdakı normativ sənədlərdən istifadə edilir: Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyası, Azərbaycan 2030:sosial iqtisadi inkişafa dair milli prioritetlər; Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial iqtisadi inkişaf strategiyası, Azərbaycan Respublikasının milli iqtisadi perspektivi üzrə strateji yol xəritəsi.

*4.1.2.Elmi tədqiqat strategiyasının filialın missiyasına və hədəflərinə uyğunluğu vəziyyəti.*

Filialın professor- müəllim heyəti yuxarıda qeyd edildiyi kimi fəaliyyətə başladığı dövrdən aşağıdakı istiqamətlərdə elmi tədqiqatlarla məşğuldurlar:

-müasir iqtisad elminin aktual problemləri;

-regionların sosial iqtisadi inkişafının sürətləndirilməsi məsələləri;

-fənlərarası inteqrasiya və innovasiyaların ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsində rolu. Göstərilən istiqamətlərdə aparılan tədqiqatalar sonda elmi-tədqiqat strategiyasında nəzərdə tutulmuş nüfuzlu nəşrlərdə elmi əsərlərin çapına, elmi-tədqiqat qrant layihələrinin həyata keçirilməsinə gətirib çıxaracaqdır.

*4.1.3 ATM-nin elmi-tədqiqat siyasətinin, onun məqsədlərinin və prioritet tədqiqat sahələrinin və istiqamətlərinin, təşviq mexanizmlərinin və tədqiqat fəaliyyətinin idarə olunmasının elmi-tədqiqat strategiyasında nəzərə alınması vəziyyəti.*

UNEC-in Zaqatala filialında nəzərdə tutulan istiqamətlərdə aparılan elmi tədqiqat işləri sonda professor- müəllim heyyəti tərəfindən aparılmış araşdırmaların praktik effektlər verməsi ilə nəticələnəcəkdir.

Belə ki, region üçün spesfik olan fındıqçılıq, baramaçılıq, çayçılıq, gülçülük, arıçılıq, tütünçülük, taxılçılıq və i.a. istiqamətlərdə əldə edilən iqtisadi səmərəlilik bütövlükdə Respublikaya valyuta gətirən bu sahələrin inkişafına təkan verəcəkdir.

*4.1.4 Elmi tədqiqat məqsədlərinin filialın uzunmüddətli strateji inkişaf proqramının istiqamətlərinə uyğunluğu.*

Elmi-tədqiqatların əsas məqsədlərindən biri regionun bütövlükdə sosial –iqtisadi inkişafına nail olmaqdır. Bu nöqteyi-nəzərdən strateji inkişaf proqramının nəticələri olaraq:

-bölgənin yuxarıda adları çəkilən istiqamətdə sahələrinin inkişafı;

-ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsinə yol açacaqdır.

*4.1.5. Strategiyada Elmi tədqiqat fəaliyyətinin təlim və tədris prosesinə inteqrasıyasının nəzərə alınma vəziyyəti.*

UNEC Zaqatala filialının İqtisadiyyat və idarəetmə kafedrasının iş planında professor-müəllim heyətinin, o cümlədən doktorantlarının elmi–tədqiqat fəaliyyətinin tədris prosesinə inteqrasiyasının həyata keçirilməsi xüsusi prioritet təşkil edir.

Bu istiqamətdə tədris prosesində görülən işlərin ana xəttini öyrənənlərin bilikli, savadlı, hərtərəfli inkişaf etmiş və praktik vərdişlərə malik gənc nəsil kimi formalaşması təşkil edir.

Bunun nəticəsi olaraq biz ensiklopedik biliyə malik cəmiyyət üzvləri yetişdirəcəyik ki, bu da savadlı insan kapitalı deməkdir. Bu nöqteyi nəzərdən professor- müəllim heyəti tədris prosesinə və fənlərarası inteqrasiyaya da xüsusi önəm vermiş olacaqdır. Bütün bunların nəticəsi kimi yuxarıda nəzərdə tutulmuş məqsədlərimizə çatmış olacağıq.

*4.1.6.Strategiyada professor- müəllim heyətinin performansının nəzərə alınması vəzyyəti*

UNEC Zaqatala filialının elmi-tədqiqat strategiyasının əsas hədəflərindən biri filialın professor- müəllim heyətinin özünü təqdimat qabiliyyətlərinin inkişaf etdirilməsidir. Müəllim nüfuzu bəzən öyrənənlərin hərtərəfli inkişafında onun elm və savadı qədər əhəmiyyət kəsb edir. Filialın professor- müəllim heyəti bu nöqteyi nəzərdən sözün həqiqi mənasında çox irəli getmişdir. Tələbələrin demək olar ki, hamısı filialın bütün müəllimlərinin özünü ifadəetmə bacarıqlarından razıdırlar. Bunu biz tez-tez keçirilən qarşılıqlı dərs dinləmələrdə, müxtəlif elmi-metodiki seminarlarda müşahidə edirik. Bu sahədə işlərin daha da effektiv getməsi üçün tələbə və müəllimləri müştərək elmi işlərə təşviq edirik.

*4.1.7. Elmi tədqiqat strategiyasının filialın akademik heyət, yerli və xarici tərəfdaşlar üçün əlçatanlığı vəziyyəti.*

UNEC-in Zaqatala filialında keçirilmiş Respublika elmi-praktik konfranslarında 10-a qədər ali təhsil müəssisəsi və digər təşkilatların nümayəndələri də iştirak etmişlər. İştirakçılar arasında həm filialın, həm də həmin ali məktəblərin tələbələri də olmuşdur. Bu zaman konfransların gedişində tərəfdaşlar arasında fikir mübadiləsi aparılması imkanları da reallaşdırılmışdır. Elmi-tədqiqat strategiyasının daha da dərinləşməsi üçün xarici yüksək reytinqli ali məktəblərlə müxtəlif sahələrdə əməkdaşlıq üzrə məsləhətləşmələr aparılır.

*4.1.8.Elmi-tədqiqat strategiyasının hazırlanmasında maraqlı tərəflərin iştirakı vəziyyəti.*

UNEC-in Zaqatala filialı ilə Bakı Dövlət Universiteti (BDU), Sumqayıt Dövlət Universiteti (SDU), Zaqatala bölgə təcrübə stansiyası, həmçinin bir neçə xarici universitetlər qarşılıqlı əməkdaşlıq üzrə razılaşmalar əldə edilmişdir. Onların birgə elmi-tədqiqatlara cəlb edilməsi barədə məsləhətləşmələr aparılır. Bu sahələrdə həmin tərəflər üçün də maraqlı nəticələrin alınmasından ötrü uyğun təkliflər onlara ünvanlanmışdır. Yuxarıda qeyd etdiyimiz filialın elmi-tədqiqat strategiyasının hazırlanmasında Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə dövlət strategiyasından istifadə edilmişdir.

*4.2 Tədqiqat resursları*

*4.2.1. ATM-nin infrastrukturunun maddi və texnoloji resurslarının, büdcəsindən ayrılan maliyyə resurslarının onun elmi-tədqiqat məqsədlərinə və strategiyasına uyğunluğu vəziyyəti.*

UNEC-in Zaqatala filialında tədqiqat resursları geniş əhatəyə malikdir. Qeyd etmək lazımdır ki, filialın yaradılmasının əsas məqsədlərindən biri də regionun sosial - iqtisadi sahədə inkişafını təmin etməkdən ibarətdir.

*4.2.2.Aktiv elmi tədqiqatla məşğul olan professor-müəllim heyətinin mövcud olma vəziyyəti.*

UNEC-in Zaqatala filialında 39 nəfər (otuz doqquz) professor müəllim heyətinin demək olar ki, hamısı öz sahələri üzrə elmi-tədqiqatla məşğuldurlar. Onların tədqiqatları iqtisadi elmlərin bütün spektrini, regionların sosial- iqtisadi inkişafının sürətləndirilməsi məsələlərini və ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsində fənlərarası inteqrasiya və innovasiyalardan istifadənin araşdırılmasını əhatə edir.

*4.2.3. Aktiv elmi tədqiqatla məşğul olan gənc tədqiqatçıların təşkilatlanması vəziyyəti.Tədqiqatçıların müxtəlif istiqamətlər üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışının olması vəziyyəti.*

UNEC Zaqatala filialında 3(üç) doktorant vardır. Onlarla yanaşı filialın tələbələrinin də professor müəllim heyətinin fasilitatorluğu ilə elmi - tədqiqat işlərinə cəlb edilməsi reallaşdırılır, təhsilalanlar filialda və digər ali təhsil müəsisələrində keçirilən elmi - praktik konfranslara qoşulur və müxtəlif səviyyəli platformalarda iştirak edirlər.

Filialın gənc tədqiqatçılarının və doktorantlarının öz istiqamətləri üzrə beynəlxalq elmi məlumat bazalarına çıxışları vardır.

*4.2.4. Tədiqatçıların müxtəlif istiqamətlər üzrə Beynəlxalq elmi- məlumat bazarına çıxışının olması vəziyyəti.*

UNEC Zaqatala filialının Beynəlxalq elmi- məlumat bazaralarından Web of Science və Scopus bazalarına çıxışı təmin edilmişdir. Bu sahədə filialın professor-müəllim heyəti fəaliyyətlərini davam etdirirlər.

*4.2.5.Nəticə yönümlü elmi tədqiqat işlərinin davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlərin olması vəziyyəti;*

UNEC-in Zaqatala filialında elmi-tədqiqat işləri qeyd etdiyimiz kimi müasir iqtisad elminin aktual problemlərini, regionun sosial iqtisadi inkişaf mexanizmlərinin araşdırılması və ali təhsil sahəsində tədrisin keyfiyyətinin yüksəldilməsində innovasiyaların və fənlərarası inteqrasiyasının rolunu əhatə edir. UNEC-də mövcud olan və elmi-tədqiqatların davamlılığının təmin olunması üçün stimullaşdırıcı mexanizmlər filialdada keçərlidir.

*4.2.7. Müxtəlif elmi müəssisə və təşkilatlarla tədqiqat sahəsində əməkdaşlıq əlaqələrinin mövcudluğu vəziyyəti:*

UNEC-in Zaqatala filialında keçirilən müxtəlif tədbirlərdə, o cümlədən Respublika Elmi-praktik konfranslarda 10-a qədər ali təhsil müəssisə və digər təşkilatlar iştirak etmişlər. Bunun nəticəsində həmin təşkilatlarla müxtəlif sahələrdə əməkdaşlıq imkanları formalaşdırılmışdır.

*4.3 Elmi-tədqiqat fəaliyyəti*

*4.3.1 Elmi tədqiqat fəaliyyətinin idarə edilməsi üzrə müvafiq struktur bölmənin olması və müvafiq strategiyaya uyğun olan illik fəaliyyət planının mövcud olması vəziyyəti.*

UNEC Zaqatala filialının elmi- tədqiqat fəaliyyətinin idarə edilməsi İqtisadiyyat və idarəetmə kafedrası tərəfindən həyata keçirilir. Kafedranın illik iş planında elmi-tədqiqat işlərinin sistemli aparılması üzrə fəaliyyət planı öz əksini tapmışdır. Belə ki, ayda bir dəfə professor-müəllim heyətinin seçilmiş strategiya üzrə elmi - tədqiqat fəaliyyəti qarşılıqlı müzakirə olunur. Kafedranın ictimai, mədəni - kütləvi tədbirlər planında da əlamətdar günlər və hadisələr ilə əlaqədar Respublika elmi- praktik konfranslarının keçirilməsi nəzərdə tutulur. Bu işlərin regionun sosial iqtisadi inkişafı üzrə tətbiqi istiqamətində icrası nəzərdə tutulur. UNEC Elmi Şurasının 27 yanvar 2023-cü il tarixli qərarı ilə filialda UNEC Regional İqtisadiyyat Tədqiqat Mərkəzi yaradılmışdır.

*4.3.2.Elmi tədqiqat xarakterli konfransların seminarların, görüşlərin və s. tədbirlərin keçirilməsi vəziyyəti*

UNEC Zaqatala filialında 2018-ci ildən başlayaraq aşağıdakı Respublika elmi-praktik konfransları keçirilmişdir:

-31.05.2018 İqtisad elminin müasir probemləri;

-11.06.2019 Ümummilli lider H.Əliyevin anadan olmasının 96- cı ildönümünə həsr olunmuş, Müasir iqtisad elminin aktual problemləri:

-13.07.2020 Qlobal iqtisadi dəyişikliklər və fürsətlər, fənlərarası inteqrasiya

-01.12.2020 Regionların sosial - iqtisadi inkişafında müasir universitetlər: yeni çağırışlar, fürsətlər;

-28.05.2021: UNEC Zaqatala filialının 5 illik yubileyinə həsr edilmiş Respublika elmi- praktik konfransı

-06.05.2021: Ümumilli lider Heydər Əliyevin 98-cı ildönümünə həsr olunmuş Respublika elmi -praktik konfransı

-23.12.2021: Nizami Gəncəvinin 880 illik yubileyinə həsr edilmiş, Qüvvət elimdədir başqa cür heç kəs heç kəsə üstünlük eyləyə bilməz adlı konfrans

-27.12.2021: Lütfi-Zadənin 100 illik yubileyinə həsr edilmiş Lütfi-Zadə qeyri-səlis məntiq nəzəriyyəsinin banisidir adlı konfrans

-05.05.2022: Azərbaycan xalqının ümumilli lideri H.Əliyevin 99- cu il dönümünə həsr edilmiş: Müasir universitetlər və bölgələrin sosial-iqtisadi inkişafı: çağırışlar , nəticələr, fürsətlər adlı konfrans.

*4.3.3. Elmi tədqiqat xarakterli konfranslarda, seminarlarda, görüşlərdə və s. tədbirlərdə digər müəsisələrin və ölkələrin tədqiqatçılarının iştirakı vəziyyəti.*

UNEC Zaqatala filialında 2018 ci ildən başlayaraq keçirilən yuxarıda adları qeyd edilən 9 (doqquz) elmi praktik konfranslarda 10-na qədər ali məktəbin professor-müəllim heyətləri iştirak etmişlər.

*4.3.4.Elmi tədqiqat xarakterli konfranslarda,seminarlarda , görüşlərdə və s. tədbirlərdə gənc tələbə tədqiqatçıların iştirakı vəziyyəti*

UNEC Zaqatala filialında keçirilən Respublika elmi praktik konfranslarda filialın tələbələri ilə yanaşı 5-ə qədər digər ali məktəbin də gənc tədqiqatçıları iştirak etmişlər.

*4.3.5 Elm və təhsil sahəsində beynəlxalq qrant layihələrində iştirak vəziyyəti*

UNEC-in Zaqatala filialı beynəlxalq qrant layihələrdə iştirak etməmişdir.

*4.3.6 Elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması vəziyyəti*

UNEC-in Zaqatala filialında elmi-tədqiqat fəaliyyəti üzrə patentlərin əldə edilməsi və kommersiallaşdırılması həyata keçirilməmişdir.

*4.3.7 İnstitutsional əməkdaşlığı (milli və beynəlxlaq səviyyədə birgə proqramların icrası və s.), birgə təşəbbüsləri (birgə tədqiqat mərkəzlərinin yaradılması və s.) təşviq edən səməri mexanizmlərin mövcudluğu vəziyyəti*

UNEC Elmi Şurasının 27 yanvar 2023-cü il tarixli qərarı ilə filialda UNEC Regional İqtisadiyyat Tədqiqat Mərkəzi yaradılmışdır.

*4.3.8.Birgə tədqiqat proqramlarının mövcudluğu vəziyyəti.*

Bakı Dövlət Universiteti, Sumqayıt Dövlət Universiti, Türkiyə Respublikası Süleyman Dəmirəl Universiteti ilə

-riyazi yönümlü iqtisadi fənlərin tədris praqramlarının hazırlanması;

-informasiya texnologiyaları üzrə birgə tədqiqatların aparılması;

-geniş spektrlı birgə elmi - praktik konfransların keçirilməsi;

-müxtəlif səpkili tədqiqat praqramlarının həyata keçirilməsi və s.

*4.3.9 Tədqiqatçıların beynəlxlaq elmi-tədqiqat şəbəkələrində iştirak vəziyyəti*

UNEC-in Zaqatala filialının tədqiqatçıları beynəlxlaq elmi-tədqiqat şəbəkələrində aktiv iştirak edirlər.

*4.3.10.Yerinə yetirilən elmi-tədqiqat işlərinin tədris metodiki vasitələrində istifadəsi vəziyyəti*

UNEC-in Zaqatala filialında yerinə yetirilmiş elmi-tədqiqat işlərinin nəticəsi olaraq 3 (üç) tədris metodiki vəsait və 2 (iki) proqram hazırlanmışdır.

*4.3.11 Elmi-tədqiqat materiallarının dərc etdirilmə imkanlarının yaradılması vəziyyəti*

UNEC-in Zaqatala filialında elmi-tədqiqat materiallarının dərc edilməsi üçün müvafiq şərait yaradılmışdır.

*4.3.12 Tədqiqatçılar tərəfindən nüfuzlu beynəlxalq nəşrlərdə dərc olunmuş elmi məqalələrə istinadetmə indeksinin (“citation index"-in) artım dinamikası*

UNEC-in Zaqatala filialının əməkdaşlarının beynəlxaq nəşrlərdə dərc olunmuş elmi məqalələri mövcud deyildir.

*4.3.13 Tədris planında (magistratura və doktorantura səviyyələrində) tədqiqat yönümlü fənlərin nəzərə alınması vəziyyəti*

UNEC-in Zaqatala filialında təhsilin bakalavr səviyyəsi üzrə tədris aparılır.

*4.3.14. Akademik heyətin tədqiqat və inkişaf bacarıqlarının inkişaf etdirilməsi üçün təlimlərin, seminarların və digər sistematik fəalliyyətin həyata keçirilməsi vəziyyəti.*

UNEC-in Zaqatala filialı fəaliyyətə başladığı dövrdən ( 29.04.2016 - cı il) professor-müəllim heyəti tədqiqat və inkişaf bacarıqlarını təkmilləşdirmək üçün təşkil edilmiş müxtəlif tədbirlərdə iştirakı aşağıdakı kimi olmuşdur:

2018-2019 Quba qış məktəbi 8 (səkkiz) nəfər ;

2019-2020 UNEC-də təlim 6 (altı) nəfər

2020-2021 UNEC-də təlim 6 (altı) nəfər

UNEC Zaqatala filialının İqtisadiyyat və idarəetmə kafedrasının iş planına müvafiq olaraq mütəmadi olaraq professor-müəllim heyətinin tədqiqat və inkişaf bacarıqlarının mükəmməlləşdirilməsi üçün seminarlarda aktual məsələlər müzakirə olunur. Bunlara misal olaraq bulud texnologiyalarını, Sokratik seminarları, fənlərarası inteqrasiyanı və i.a. göstərmək olar.

*4.3.15. Doktorantura proqramlarının təşviq edilməsi və doktorantura məzunlarının işə cəlb edilmə siyasətinin mövcudluğu.*

UNEC-in Zaqatala filialında magistrlərin doktorantura təhsilinə cəlb edilməsində mütəmadi və fasiləsiz iş aparılır. Bunun nəticəsidir ki, hal - hazırda filialda 3 (üç ) doktorant fəaliyyət göstərir.

*4.3.16 Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının (5%-dən az olmamaqla) dəyişməsi vəziyyəti*

Ali təhsilin bütün səviyyələri üzrə təhsil proqramlarında tədris prosesində iştirak edən elmlər doktoru və professorların sayının dəyişməsi yoxdur.

*4.3.17 Elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında elmi dərəcəsi olan tədqiqatçıların akademik heyətə olan nisbətinin dəyişməsi 2,6 faiz olmuşdur.

*4.3.18 Elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə uyğunluğu*

UNEC-in Zaqatala filialında elmi dərəcələrin alındığı istiqamətlərin kvalifikasiyasının müəssisənin elmi tədqiqat hədəflərinə əsasən uyğundur.

*4.3.19 Elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti*

UNEC-in Zaqatala filialında elmi-tədqiqat fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin formalaşdırılması istiqamətində işlər davam etdirilir. Bununla yanaşı filialda elmi-tədqiqat sahəsində fərqlənən əməkdaşların mükafatlandırılması həyata keçirilir.

*4.3.20 Doktorantura dissertasiyasının hazırlanması və müdafiəsinin təşkili.*

UNEC Zaqatala filialında təhsilin bakalavr səviyyəsi üzrə tədris aparılır.

*4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti*

*4.4.1.Antiplagiat və akademik dürüstlük siyasətinin mövcudluğu.*

UNEC-in Zaqatala filialının İqtisadiyyat və idarəetmə kafedrasında istər elmi-tədqiqat, istərsə də təhsil prosesində akademik dürüstlük meyarlarının müəyyən edilməsi və onlara əməl edilməsi sahəsində mütəmadi və məqsədyönlü işlər görülməkdədir. Bu məsələ kafedranın illik iş planlarında ayda bir dəfə nəzərdə tutulmuş həmin məsələyə həsr olunmuş iclaslarda müzakirə olunur. Bu mövzuda mütəmadi keçirilən seminarlarda əsas hədəf plagiata yol verməməyə fokuslanmaqdır. Aparılmış müzakirələrin nəticəsi kimi biz ayrı- ayrı fənlərin fundamental biliklərindən istifadəsinin istisna olmaqla yerdə qalan hallarda plagiata yol verməməyin zəruriliyini ön plana çəkirik. Bu sahədə istəməyərəkdən baş vermiş nöqsanlar isə redaksiya mərhələsində aşkar edilərək vaxtında lazımı korreksiyalar ilə aradan qaldırılır. Ədəbiyyatdan istifadə zamanı da çox ehtiyyatlı olmaq tələb olunur. Belə ki, alınmış nəticələrin ədəbiyyatlardakı məlumatlarla tutuşdurulması və xətaların nə dərəcədə olmasının nəzərə alınması da xüsusi ilə vacibdir.

Dediklərimizdən məlum olur ki, filialda antiplagiata və akademik dürüstlüyə xüsusi önəm verilir.

*4.4.2. Köçürmə hallarının (tədqiqat və tədris prosesində) qarşısının alınması ilə bağlı effektiv alətlərin və təsdiq olunmuş yazılı prosedurların mövcudluğu.*

UNEC-in Zaqatala filialında tədqiqatların istiqamətləri əsasən müasir iqtisad elminin aktual problemləri, regionun sosial iqtisadi inkişafı məsələləri, ali təhsildə tədrisin keyfiyyətinin yüksəldilməsində fənlərarası inteqrasiya və innovasiyalardan istifadəni və s. əhatə etdiyindən professor-müəllim heyəti öz səylərini tədqiqatlarda yeni orijinal nəticələrin alınmasına kökləmişlər. İlk növbədə hər bir tədqiqatçı öz sahəsində mövcud ədəbiyyatın araşdırılması tədqiqatını həyata keçirir. Bunun ardınca ədəbiyyatın xülasəsi tərtib edilir və həmin sahə üzrə mövcud nəticələrin analizi aparılır. Bu zaman müxtəlif tədqiqat metodlarında istifadə edilir. Növbəti mərhələdə hansı hədəflərə fokslanmağınız müəyyənləşdirilir, həmin hədəflərə çatma yolları müzakirə olunur. Bu prosesin sonunda həmmüəlliflərin ümumi razılığı ilə ana xətt müəyyənləşdirilir və ümumi nəticəyə gəlinir.

Təhsil prosesində köçürmə hallarının qarşısının alınması xüsusi önəm kəsb edir ona görə də öyrənənlər arasında mütəmadi maarifləndirmə işləri aparılır. Onlara Azərbaycan təhsili qarşısında duran əsas məsələlərdən birinin xalqımız, dövlətimiz üçün hərtərəfli inkişaf etmiş bilikli, bacarıqlı, praktik vərdişlərə malik gənc nəsli yetişdirilməsi olduğu bildirilir.

*4.4.3 Filialda antiplagiat sisteminin təhsil və elmi tədqiqat prosesində iştirak edən tələbə və professor- müəllim heyətini əhatə etmə səviyyəsi.*

UNEC-in Zaqatala filialında keçirilmiş konfransların elanlarında bir mənalı olaraq tezis və məruzələrdə yenilik, səmərəlilik, və s. nəzərə çarpan olması əsas tələb kimi irəli sürülür. Bu isə istər tələbələrin, istərsə də müəllimlərin material üzərində işləyərkən diqqətli olmalarını tələb edir. Filialda və digər yerlərdə keçirilmiş konfranslarda demək olar ki, filialın bütün professor-müəllim heyəti təmsil olunmuşlar. Professor- müəllim heyətinin seminarlarda qarşılıqlı fikir mübadiləsi zamanı müşahidə etdiyimiz nəticələrə əsasən onların maraq dairələrinin geniş olması və bəzi hallarda bir - biri ilə kəsişməsinin olması onu göstərir ki, plagiat halları minimum olacaqdır. Bu tədbirlərdə iştirak edən tələbələr də müəllimlərlə əməkdaşlıq etdiklərindən onların plagiata yol vermə ehtimalı azalır. Bu bir tərəfdən

elmi-tədqiqatların spektrının geniş olmasından xəbər verir, digər tərəfdən plagiatın minimuma endirilməsinə zəmin yaradır.

## 5. İDARƏETMƏ SİSTEMİ

*5.1 İdarəetmə orqanları*

*5.1.1 ATM-də ödənişli və ictimai əsaslarla fəaliyyət göstərməsi nəzərdə tutulan idarəetmə orqanlarının (himayəçilər, elmi, elmi-metodiki, təhsilalanlar, qəyyumlar şuraları və s.) Nizamnaməyə uyğunluğu və idarəetmə orqanlarının əsasnamələrinin, strukturunun və fəaliyyət/iş planlarının mövcudluğu vəziyyəti*

Hal-hazırda UNEC-in Zaqatala filialının Əsasnaməsinə uyğun olaraq filialda Zaqatala İqtisad Məktəbi, onun strukturuna daxil olan İqtisadiyyat və idarəetmə kafedrası, katiblik və Elmi Şura fəaliyyət göstərir. Həmin idarəetmə orqanlarının və onların strukturuna daxil olan bölmələrin iş planları mövcuddur.

İqtisadiyyat və idarəetmə kafedrasında tədris olunan fənlərin keyfiyyətini yüksəltmək məqsədilə kafedranın tərkibində 2 bölmə yaradılmış və fəaliyyət göstərir. İqtisadiyyat və idarəetmə kafedrasında tədris olunan fənlərin keyfiyyətini yüksəltmək məqsədilə kafedranın nəzdində 2 bölmə fəaliyyət göstərir:

-İqtisadiyyat və idarəetmə bölməsi;

-Ümumi fənlər bölməsi.

*5.1.2 İdarəetmə orqanlarında maraqlı tərəflərin (işəgötürənlərin, tələbələrin, ictimaiyyət nümayəndələrinin və s.) təmsil olunma vəziyyəti*

Filial elmi şurasının tərkibində tələbə təşkilatları təmsil olunur. İdarəetmə orqanlarında ictimaiyyət nümayəndələri və tələbələr qəbul edilir.

*5.1.3 İdarəetmə orqanlarının iclaslarının, yığıncaqlarının və tədbirlərinin təsdiq edilmiş fəaliyyət planına uyğun keçirilməsi vəziyyəti*

UNEC-in Zaqatala filialının idarəetmə orqanlarının iclasları və tədbirləri təsdiq edilmiş fəaliyyət planına, elmi şuranın gündəliyinə uyğun həyata keçirilir.

*5.1.4 İdarəetmə orqanlarında məsələlərin müzakirə olunması və qərarların verilməsinin reqlamentləşdirilməsi prosedurunun olması vəziyyəti*

UNEC-in Zaqatala filialında idarəetmə orqanlarının fəaliyyət qrafiki tədris ilinin əvvəlində hazırlanan iş planlarında öz əksini tapır.

*5.1.5 İdarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarların qanunvericiliyin tələblərinə uyğunluğu, qərarlarının əlçatanlığı və qərarların icra vəziyyəti*

UNEC-in Zaqatala filialının idarəetmə orqanları tərəfindən qəbul edilmiş qərarlar qanunvericiliyin tələblərinə uyğun olaraq qəbul edilir.

*5.1.6 İdarəetmə orqanları arasında qarşılıqlı əlaqənin və kommunikasiyanın mövcud olması vəziyyəti*

UNEC-in Zaqatala filialının idarəetmə orqanları qarşılıqlı fəaliyyət göstərirlər və məlumat mübadiləsi həyata keçirirlər. Eyni zamanda tədris prosesinin təşkilində UNEC-in müvafiq struktur bölmələri ilə paralel fəaliyyət göstərilir.

*5.1.7 İdarəetmə orqanları daxilində səlahiyyət və vəzifə bölgüsünün aparılması vəziyyəti*

UNEC-in Zaqatala filialında müvafiq struktur bölmələrin əsasnaməsinə uyğun olaraq səlahiyyət və vəzifə bölgüsü həyata keçirilir.

*5.1.8 İdarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin mövcudluğu, idarəetmə orqanlarının fəaliyyətinə dair dövrü hesabatların hazırlanması vəziyyəti*

UNEC-in Zaqatala filialının idarəetmə orqanlarının fəaliyyətinin montorinqi və qiymətləndirilməsi mexanizminin icrası rəhbərlik tərəfindən həyata keçirilir və yerinə yetirdikləri fəaliyyətə görə rəhbərliyə hesabat verirlər.

*5.1.9 İdarəetmə orqanlarının şəffaf və nəticəyönümlü fəaliyyətinin təmin edilməsi və davamlı təkmilləşdirilməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında idarəetmə prosesi “Təhsil haqqında” Azərbaycan Respublikası Qanununa, Ali təhsil müəssisələri haqqında Əsasnaməyə, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin normativ-hüquqi aktlarına, Azərbaycan Dövlət İqtisad Universitetinin Nizamnaməsinə və filialın ali idarəetmə orqanının - Elmi Şurasının qərarlarına müvafiq olaraq həyata keçirilir. İdarəetmə orqanlarının fəaliyyəti şəffaflıq və obyektivlik prinsipi əsasında həyata keçirilir.

*5.2 İnsan resurslarının idarə edilməsi*

*5.2.1 ATM-də işə qəbul prosedurunun mövcud olması, şəffaf və əlçatan formada həyata keçirilməsi vəziyyəti, seçkili vəzifələrin tutulması prosedurunun qanunvericiliyin tələblərinə uyğun olması vəziyyəti*

Akademik heyətin işə qəbulu, “Ali təhsil müəssisəsində kafedra müdiri, dekan və dekan müavini vəzifələrinin tutulması Qaydaları”nın tətbiqi barədə Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin 05.02.2018-ci il tarixli F-100 №-li əmri və

Azərbaycan Respublikası Təhsil Nazirliyinin 07.08.1996-cı il tarixli 401 №-li əmrinin 1 №-li Əlavəsi ilə təsdiq edilmiş “Ali təhsil müəssisələrində professor-müəllim və kafedra müdiri vəzifələrinin tutulması qaydaları haqqında” Əsasnaməyə və elan olunmuş gənc müəllim layihələri və ingilis dili müəllimləri üçün aparılan müsahibə vasitəsilə, qeyri-akademik heyətin isə “Məşğulluq haqqında” Azərbaycan Respublikasının 29.06.2018-ci il tarixli 1196-V.Q. №-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin “Məşğulluq Alt Sistemi”ndə filial tərəfindən verilmiş elana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilir.

*5.2.2 ATM-in akademik və inzibati heyətinin onun strateji inkişaf proqramına və maliyyə resurslarına uyğun olması*

UNEC-in Zaqatala filialının akademik və inzibati heyətinin onun strateji inkişaf və maliyyə resurslarına uyğundur

*5.2.3 ATM-də işçilərin səlahiyyət həcmindən, məsuliyyət dərəcəsindən, peşəkarlıq səviyyəsindən və digər keyfiyyət göstəricilərindən asılı olaraq əmək haqqı sisteminin mövcud olması*

Hər il UNEC-in Zaqatala filialının ştat cədvəli hazırlanarkən işçilərin səlahiyyət həcmi, məsuliyyət dərəcəsi, peşəkarlıq səviyyəsi nəzərə alınır. Filialda işçilərin əmək haqqı sistemi ştat cədvəlinə uyğun olaraq tənzimlənir.

*5.2.4 ATM-də işçilərin motivasiyası və mükafatlandırılması sisteminin mövcud olması*

Əmək funksiyasını yüksək peşəkarlıq səviyyəsində yerinə yetirilməsində və müəssisədaxili intizam qaydalarına əməl edilməsində fərqlənmiş işçilər pul və digər həvəsləndirmə vasitələri ilə mükafatlandırılırlar. Eyni zamanda akademik heyətin nüfuzlu elmi nəşrlərdə elmi məqalələrinin çap edilməsinə görə mükafatlandırma sistemi mövcuddur.

*5.2.5 ATM-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsinin aparılması vəziyyəti*

UNEC-də işçilərin fəaliyyətinin səmərəliliyinin vaxtaşırı qiymətləndirilməsi struktur rəhbərləri tərəfindən həyata keçirilir. İşçilərin fəaliyyətinin qiymətləndirilməsi filial rəhbəri tərəfindən düzgün və effektiv qərarlar qəbul etmək baxımından zəruri idarəetmə vasitəsidir.

*5.2.6 ATM-də işçilərin ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb edilməsi vəziyyəti*

Filial əməkdaşlarının peşəkarlıq səviyyəsini artırmaq məqsədilə onlar mütəmadi olaraq təlimlərdə və konfranslarda iştirak edirlər UNEC-in Zaqatala filialının 08.02.2019-cu il tarixli, 03-01/04 №-li, 24.05.2019-cu il tarixli 03-01/13 №-li, 13.12.2019-cu il tarixli 03-01/25 №-li və s. əmrləri ilə işçilər ixtisasartırma və peşəkarlıq səviyyəsinin artırılmasına yönələn təlimlərə cəlb ediliblər.

*5.2.7 ATM-də işçilərə münasibətdə sosial və mədəni tədbirlərin keçirilməsivəziyyəti*

Filial səviyyəsində, habelə struktur bölmələrdə işçilər üçün milli və dövlət bayramları münasibəti ilə və yubileylərlə bağlı tədbirlər, habelə rayonlara ekskursiyalar və s. sosial-mədəni tədbirlər təşkil edilir.

*5.2.8 Qeyri-akademik heyətin (inzibati, texniki və köməkçi işçilər) işə qəbulu prosesində şəffaflığın təmin edilməsi vəziyyəti*

Struktur bölmə rəhbərləri istisna olmaqla qeyri-akademik heyətin işə qəbulu prosesi "Məşğulluq haqqında" Azərbaycan Respublikasının 29.06.2018-ci il tarixli 1196-V.Q. №-li Qanununa uyğun olaraq Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Mərkəzləşdirilmiş Elektron İnformasiya Sisteminin "Məşğulluq Alt Sistemi"ndə filial tərəfindən verilmiş elana uyğun olaraq vakansiyaya göndəriş əsasında həyata keçirilir.

*5.2.9 Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirmə sisteminin mövcud olması vəziyyəti*

Qeyri-akademik heyətin fəaliyyətinin qiymətləndirilməsi onların struktur rəhbərləri tərəfindən həyata keçirilir.

*5.2.10 Əmək münasibətlərinin və mülki münasibətlərin bağlanması və xitam verilməsi zamanı qanunvericiliyin tələblərinin nəzərə alınması vəziyyəti*

Əmək müqavilələrinin bağlanması yaxud onlara xitam verilməsi əsasları Azərbaycan Respublikası Əmək Məcəlləsinin tələbləri nəzərə alınmaqla həyata keçirilir.

*5.3 Maliyyə resurslarının idarə edilməsi*

*5.3.1 ATM-in maliyyə reurslarının (dövlət büdcəsi, ödənişli təhsil, elmi-tədqiqatlar, ianələr, qrantlar və s.) mənbələrinin onun Nizamnaməsinə uyğunluğu*

UNEC Zaqatala filialı 2016-cı ilin sentyabr ayından fəaliyyətə başlamışdır.Filial Əsasnamə əsasında fəaliyyət göstərir. Maliyyə resursları əsasən dövlət büdcəsindən gələn vəsait və ödənişli təhsildən formalaşmışdır. Həmin mənbələrdən daxil olan vəsait tam olaraq əsasnamənin tələblərinə uyğun formalaşdırılmaqla dövri olaraq şəffaf şəkildə həyata keçirilir.

*5.3.2 Maliyyə resurslarının qısa və orta müddətli dövr üçün planlaşdırmasəviyyəsi*

Filialda maliyyə resursları əsasən qısa müddətli dövr üçün(illik) planlaşdırılır. Belə ki, illik(qısa dövr üçün) planlaşdırma cari Maliyyə ili üzrə tutulan Gəlirlər və xərclər smetasına əsasən həyata keçirilir. Gələcəkdə filialın orta dövr üçün maliyyə resurslarının planlaşdırılmasının həyata keçirilməsi gündəmdə olan məsələdir.

*5.3.3 Maliyyə resurslarının planlaşdırılması, istifadəsi və monitorinqi üzrə fəaliyyətlərin müəssisənin SİP-ə uyğunlaşdırılması vəziyyəti*

ATM-də maliyyə resurslarının planlaşdırılması və istifadəsinin vəziyyətini öyrənmək məqsədilə vaxtaşırı olaraq monitorinq həyata keçirilir. Bu zaman məliyyə resurslarının İllik Gəlirlər və Xərclər smetasında nəzərdə tutulan istiqamətlər üzrə istifadəsinin qanunauyğun şəkildə icra olunması vəziyyəti araşdırılaraq SİP-ə uyğunlaşdırılması vəziyyəti təhlil edilir.

*5.3.4 Əlavə maliyyə resurslarını əldə etmək imkanlarının vəziyyəti*

Filial fəaliyyətə başladığı vaxtdan hal hazırkı dövrədək əlavə maliyyə resursları əldə olunmasa da, növbəti illərdə əlavə maliyyə mənbələrinin cəlb olunması istiqamətində tədbirlərin həyata keçirilməsi planlaşdırılır.

*5.3.5 Əldə olunan maliyyə resurslarının şəffaflıq səviyyəsi*

Maliyyə mənbələrindən əldə olunan resurslar əsasən ödənişli təhsildən və dövlət büdcəsindən ayrılan vəsaitdən (dövlət sifarişli tələbələrin təhsil xərci və imtiyazlı tələbələrə ödənilən təhsil haqları) ibarətdir. Dövlət büdcəsindən ayrılan vəsait hər bir maliyyə ili üzrə Elm və Təhsil Nazirliyinə filial tərəfindən göndərilən məlumatlar (dövlət sifarişli və imtiyazlı tələbələr barədə məlumat-hesabat) əsasında həyata

keçirilir. Eyni zamanda ödənişli təhsildən daxil olan vəsait bütün təhsilalanlarla filial arasında bağlanan fərdi müqaviləyə əsasən icra edilir. Filialın fəaliyyəti dövründə maliyyə resurslarının daxilolmalarına da şəffaflığın təmin edilməsi aktual məsələ kimi daim diqqət mərkəzində saxlanılmışdır.

*5.3.6 Maliyyə resurslarından istifadənin ATM-in Nizamnaməsinə uyğunluğu*

Maliyyə resurslarının istifadəsi illik Gəlirlər və Xərclər smetasına uyğun aparılmışdır ki, bu da filialın Əsasnaməsində öz əksini tapmışdır. Fəaliyyət dövrü ərzində filialın prioritet və qeyri-prioritet istiqamətində olan xərcləri Əsasnamənin tələblərinə uyğun şəkildə icra edilmişdir.

*5.3.7 Maliyyə resurslarının əldə olunması və istifadəsi üzrə büdcə smetasının hazırlanması və təsdiq edilməsi prosedurunun ATM-in Nizamnaməsinə uyğunluğu*

ATM-in illik Gəlirlər və Xərclər smetası hər bir maliyyə ili üzrə hazrlanmışdır. Hər bir maliyyə ili üzrə tərtib edilmiş smeta filialın Əsasnaməsinin tələblərinə uyğun olaraq UNEC-lə razılaşdırıldıqdan sonra təsdiq edilməsi üçün Elm və Təhsil Nazirliyinə göndərilmişdir. Elm və Təhsil Nazirliyində smeta təsdiq edildikdən sonra onun icrası filialın Əsasnaməsinə uyğun olaraq həyata keçirilmişdir.

*5.3.8 Maliyyə resurslarından təyinatı üzrə istifadəsinə cari nəzarətin həyata keçirilməsi səviyyəsi*

Filialın maliyyə resurslarının istifadəsi smetaya uyğun şəkildə təyinatı üzrə icra olunur.Hər bir xərc maddəsi üzrə ödənişlər təsdiqedici sənədlər və normativ hüquqi aktlara əsasən aparılır. Maliyyə resurslarının icrasına cari nəzarət sistemli şəkildə olmaqla müntəzəm olaraq həyata keçirilir.

*5.3.9 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalma prosedurlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti*

Filialda qeyri-prioritet xərclərin böyük əksəriyyətini malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrə satınalmalar təşkil edir. Satınalmalar qanunvericiliyə və normativ hüquqi aktlara əsasən təşkil edilir. Belə ki, hər bir maliyyə ili üzrə planlaşdırılan satınalmalar vahid internet portalında yerləşdirilir. Satınalmalar əsasən katirovka və açıq tender formasında prosedur qaydalarına uyğun şəkildə həyata keçirilir. Belə ki, əvvəlcə satınalmanın həyata keçirilməsi

üçün elan (internet portalında) verilir, sonra müvafiq olaraq satınalma prosesi icra olunur. Satınalma proseduru başa çatdıqdan sonra nəticəsi barədə yekun protokol Respublika Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə göndərilir və oradan yekun rəy alındıqdan sonra qalib elan olunmuş şirkətlə müvafiq satınalma müqaviləsi bağlanaraq icra olunur. Filialda keçirilmiş bütün satınalmalar normativ hüquqi aktlara əsasən qanunvericiliyin tələblərinə uyğun həyata keçirilir.

*5.3.10 Malların alınması, işlərin görülməsi və xidmətlərin göstərilməsi üzrəmaliyyə və mühasibat əməliyyatlarının qanunvericiliyin tələblərinə uyğun təşkili vəziyyəti*

Filialda həyata keçirilmiş malların,iş və xidmətlərin satınalınması əməliyyatlarının aparılması mühasibatlıqda qanunauyğun şəkildə həyata keçirilir.Satınalma prosesinin icrası müqavilələr, bank sənədləri(bank təminatı,qaimələr və s.) əsasında həyata keçirilərək,müvafiq muhasibat sənədlərində və hesabatlarında öz əksini tapmışdır. Ümumiyyətlə satınalmaların təşkilində şəffaflığın təmin edilməsi və mövcud qanunvericiliyə və prosedur qaydalarına uyğun aparılması mühasibatlıqda daim diqqət mərkəzindədir.

*5.3.11 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinə uyğun tərtib olunması və aidiyyəti orqanlara (vergi, statistika, Nazirlik və s.) təqdim olunması vəziyyəti*

UNEC Zaqatala filialında maliyyə və mühasibat hesabatları tərtib olunaraq müvafiq dövlət qurumlarına göndərilir. Tərtib olunmuş hesabatlar (aylıq, rüblük, illik) qanunvericiliyin tələblərinə uyğun olaraq vaxtlı vaxtında dövlət orqanlarına təqdim edilir. Hesabatda aşkar edilmiş nöqsan və çatışmamazlıqlar operativ şəkildə aradan qaldırılır. Filial fəaliyyətə başladıqdan indiyədək maliyyə hesabatlarının dövlət orqanlarına göstərimiş müddətdə təqdim olunması daim diqqət mərkəzindədir.

*5.3.12 Maliyyə və mühasibat hesabatlarının qanunvericiliyin tələblərinəuyğun dərc olunması vəziyyəti*

ATM-də maliyyə və mühasibat hesabatları tərtib olunaraq qanunauyğun şəkildə dərc olunur. Hər bir təqdim edilmiş hesabatın surəti kargüzarlıq qaydalarına uyğun olaraq saxlanılır.

*5.3.13 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə daxili audit bölməsinin nəzarət tədbirlərinin mövcudluğu*

Maliyyə resurslarının əldə edilməsi və istifadəsinə nəzarət filialda daxili audit bölməsi olmadığından rəhbərlik və UNEC tərəfindən həyata keçirilir.

*5.3.14 Maliyyə resurslarından əldə olunması və istifadəsi üzrə kənar auditin, nəzarət tədbirlərinin mövcudluğu*

Maliyyə resurslarının əldə olunması və və istifadəsi üzrə kənar audit və nəzarət tədbirləri mövcud deyildir.

*5.3.15 Maliyyə resurslarının əldə olunması mənbələrinin və istifadəsi istiqamətlərinin təkmilləşdirilməsi üzrə fəaliyyətin olması vəziyyəti*

Filialın maliyyə resurslarının əldə olunması və istifadə olunması mənbələrinin araşdırılması və təkmilləşdirilməsi istiqamətində mütəmadi olaraq işlər həyata keçirilir. Belə ki, filialın Yataqxanasının əsaslı təmir olunaraq istifadəyə verilməsi, Əsasnaməyə uyğun olaraq əlavə maliyyə resurslarının əldə edilməsi üçün təhlillər aparılır, filialın nəzdində elmi tədqiqat mərkəzinin yaradılması istiqamətində işlər davam etdirilir.

*5.4 İnformasiya idarəetmə sistemi*

*5.4.1 ATM-də informasiya idarəetmə sisteminin, hüquqi əsaslarının və reqlamentinin mövcudluğu*

UNEC-in Zaqatala filialında UNEC rektorunun 23.09.2019-cu il tarixli 180/1/2019 nömrəli əmrlə yaradılmış işçi qrupu tərəfindən 2020-ci ildən elektron universitet “EDUMAN” və “EXAM” sistemləri qurulmuşdur.

*5.4.2 İnformasiya idarəetmə sistemində idarəetmə funksiyalarının əhatəliyi və funksionallığı , məlumatların yenilənməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında informasiya idarəetmə sistemində idarəetmə funksiyaları EDUMAN və EXAM sistemi olmaqla tədrisin dərs cədvəli, elektron jurnal, fənn kataloqu, təqvim planı, tədris materialları, qiymətləndirmə, distant təhsilin təşkili, kommunikasiya sahələrini, Exam modulu imtahan suallarının hazırlanması, testlərin tərtibi, yekun və aralıq qiymətləndirmənin aparılması, apellyasiyanın təşkili prosesini həyata keçirir. UNEC-in Zaqatala filialı ilə UNEC

arasında rəsmi prosedurаların həyata keçirilməsi üçün “DOCNET” elektron sənəd dövriyyəsi sistemi mövcuddur. “DOCNET” Elekton Sənəd Dövriyyəsi Sistemində Sənəd reysteri Sənədlərin icrası-icraya daxil olan tapşırıqlar reysteri, Sənədlərin razılaşdırılması – razılaşdırmaya daxil olan tapşırıqlar reysteri, Daxil olan – kənar təşkilatlardan daxil olan sənədlərin reysteri, Vətəndaş müraciətləri – İşçilər, tələbələr, vətəndaş müraciətlərinin reysteri, Daxili sənədlər – daxili sənədlər reyestri: xidməti məktublar, əmr, sərəncam və ərizələr, Çıxış sənədlər – təşkilatdan çıxan sənədlər reysteri, DDXM - dərkənarın dəyişdirilməsi haqqında xidməti məruzələr, Axtarış – məlumatların axtarışını həyata keçirmək üçün nəzərdə tutulub, Sorğu kitabçaları – İcraçı şablonları, razılaşdırma marşrutlarının şablonları, dərkənar şablonları, dərkənar mətnlərinin şablonları, tanışolma şablonları, yarlıqlardan ibarətdir.

*5.4.3 İnformasiya idarəetmə sistemində idarəetmə orqanları üzrə səlahiyyət bölgüsünün mövcudluğu*

UNEC-in Zaqatala filialında informasiya idarəetmə sisteminin fəaliyyəti UNEC-in müvafiq struktur bölmələri ilə paralel aparılır. Filialda informasiya idarəetmə sisteminin fəaliyyəti daha çox tədris blokuna aiddir.

*5.4.4 Təlim və tədris prosesində bütün tədris fəaliyyətlərinin rəqəmsallaşdırılması vəziyyəti*

UNEC-in Zaqatala filialında 2020-ci ildən etibarən tədris prosesi tamamilə elektronlaşmışdır. Tədris prosesi “EDUMAN” və “EXAM” sistemi vasitəsilə həyata keçirilir. Bununla yanaşı filiala qəbu olan tələbələrin sənəd qəbulu elektron sistem vasitəsilə (senedqebulu.unec.edu.az) həyata keçirilir.

*5.4.5 İnformasiya idarəetmə sisteminə əlçatanlıq səviyyəsi və tələbələrin informasiya idarəetmə sistemindən istifadə səviyyəsi*

UNEC-in Zaqatala filialında elektron universitet modeli tətbiq olunur. İnformasiya idarəetmə sisteminə əlçatanlığı təhsilalanlar və təhsilverənlər üçün yaradılmış şəxsi kabinetlər vasitəsi ilə təmin edilir. Təhsilalanlar şəxsi kabinetləri vasitəsilə dərs cədvəllərini, tədris materiallarını, imtahan nəticələrini, imtahandan öncə təqdim edilən imtahan testlərini əldə edə bilir və digər xidmətlərdən istifadə edirlər.

*5.4.6 İnformasiya idarəetmə sisteminin keyfiyyətin idarə olunmasına töhfəsi*

UNEC-in Zaqatala filialında Avropa keyfiyyət standartı təlimatları (ESG 2015 standartları) və qaydalarına əsasən keyfiyyət təminatı sisteminin tələbəyönümlü olması nəzərə alınaraq qurulmuş informasiya idarəetmə sistemində tələbələrin məlumatlara, tədris materiallarına əlçatanlığının təmin edilməsi üçün tələbə və müəllim kabinetləri yaradılmışdır. Təhsilalanlar şəxsi kabinetləri vasitəsilə tədris materiallarının əldə olunması və bütün tədris prosesinin istənilən zaman izlənilməsinə malikdirlər. Bununla yanaşı biliyin qiymətləndirilməsi üçün EXAM elektron imtahan sistemi mövcuddur. Bütövlükdə elektron universitet modelinin tətbiq olunması tədris prosesində çevikliyin, operativliyin və keyfiyyətli xidmətin göstərilməsinə xüsusi zəmin yaradır.

*5.4.7 İnformasiya idarəetmə sisteminin digər aidiyyəti qurumların (Elm vəTəhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi) informasiya sistemləri ilə inteqrasiya səviyyəsi.*

UNEC-in Zaqatal filialında tətbiq edilən EDUMAN Elm və Təhsil Nazirliyinin Təhsil Mərkəzləşdirilmiş İnformasiya Sistemi ilə inteqrasiyası mövcud deyildir. Lakin məsul əməkdaşlar tərəfindən zəruri məlumatların TMİS sisteminə daxil edilməsi həyata keçirilir.

*5.4.8 İnformasiya idarəetmə sisteminin təhlükəsizliyi, məxfiliyi və etibarlılığının təmin edilməsi vəziyyəti.*

UNEC-in Zaqatala filialında informasiya idarəetmə sistemində təhlükəsizliyin təmin olunması məqsədilə EDUMAN və EXAM sistemlərində təhsilverənlər, təhsilalanlar və idarəetmə heyəti üçün şəxsi şifrələr mövcuddur. Həmin şifrələr sadəcə istifadəçi tərəfindən dəyişdirilə və yenilənə bilər. Şifrələrin unudulması zamanı yalnız yeni şifrənin təyin olunması müvafiq tərəfdaş şirkət tərəfindən həyata keçirilir. Filialda informasiya təhlükəsizliyinin təmin olunması üçün yeni serverlərin qurulması planlaşdırılmışdır.

## *5.5 İctimaiyyətlə əlaqələr*

*5.5.1 ATM-in rəsmi saytının mövcudluğu vəziyyəti.*

UNEC-in Zaqatala filialının rəsmi saytı mövcud deyildir. Lakin mövcud informasiyalar UNEC-in rəsmi saytı ( unec.edu.az ) vasitəsi ilə paylaşılır. Bununla

yanaşı 2018-ci ildə UNEC-də yaradılmış UNECNews xəbər saytı vasitəsilə UNEC-in Zaqatala filialında keçirilmiş tədbirlər, tələbələrin uğurları və digər zəruri məlumatlar ictimaiyyətə çatdırılır.

*5.5.2 ATM-in rəsmi saytında məlumatların dəqiq, aktual və mütəmadiyenilənməsi vəziyyəti.*

ATM-də həyata keçirilən dəyişikliklər, konfranslar və digər tədbirlərlə bağlı UNEC-in İctimaiyyətlə Əlaqələr şöbəsinə məlumat verilir və UNEC-in rəsmi saytında (unec.edu.az) paylaşılır.

*5.5.3 ATM-in ictimaiyyətin məlumatlandırılması məqsədi ilə digər əlaqə üsullarından istifadə vəziyyəti.*

UNEC-in Zaqatala filialı haqqında məlumatlar UNEC-in rəsmi saytıyla (unec.edu.az) yanaşı rəsmi sosial şəbəkələrində-Facebook, İnstaqramda paylaşılır.

*5.5.4 ATM-in ictimaiyyətin məlumatlandırılması ilə bağlı fəaliyyət planın olması vəziyyəti*

UNEC-in fəaliyyət planı əsasında proses icra olunur.

*5.5.5 ATM-in məlumatlandırma fəaliyyətinin maraqlı tərəflərə onun fəaliyyətini qiymətləndirmək imkanın verməsi vəziyyəti*

UNEC-in Zaqatala filialı ilə maraqlananlar həm UNEC-in rəsmi saytı vasitəsi ilə həm də UNEC-in Zaqatala filialının sosial şəbəkələrdəki hesabları vasitəsilə məlumat əldə edə bilir. Bununla yanaşı qaynar xətt və UNEC-in Zaqatala filialının müvafiq telefonları ilə əlaqə saxlayıb məlumat əldə edirlər.

*5.5.6 ATM-in məlumatlandırma fəaliyyətinin monitorinqinin aparlması və təkmilləşdirilməsi vəziyyəti*

Monitorinqlər UNEC-in müvafiq struktur bölməsi tərəfindən aparılır.

## 6. İNFRASTRUKTUR

*6.1. Tədris infrastrukturu*

*6.1.1 Tədris binalarının və tədris otaqlarının dövlət standartlarına uyğunluğu vəziyyəti*

UNEC-in Zaqatala filialının tədris ifrastrukturu əsas tədris binasında və köməkçi (yardımçı) tikililərdə təşkil olunmuşdur. Əsas tədris binası 6 mərtəbədən ibarət olmaqla 4507 kv.metr sahəyə malikdir. Filialda 22 auditoriya (məşğələ və mühazirə), 1 linqafon kabineti, 1 kitabxana, H.Əliyev muzeyi, 1 kompüter otqğı, inzibati heyət üçün 7 iş otağı, akademik heyətin fəaliyyət göstərməsi üçün 3 iş otağı, 2 akt zalı, imtahan zalı, 2 təsərrüfat otağı, bufet(yeməkxana) ,İdman zalı və tələbə Yataqxanası fəaliyyət göstərir. Filialın binası nəqliyyat vasitələri hərəkət edən yoldan 25 metr məsafədə yerləşir. Binanın önündə açıq meydan yerləşdirilmişdir.

*6.1.2 Kitabxananın mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialı yarandığı gündən etibarən kitabxana və oxu zalı tələbə heyətinin istifadəsinə verilmişdir. Filialın müəllim və tələbələri eyni zamanda Elektron resurslardan online formada istifadə etmək imkanlarına sahibdirlər.

*6.1.3 Kadr hazırlığı aparılan ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazasının mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında ixtisasların spesifik xüsusiyyətlərinə uyğun təlim və tədris bazası mövcuddur. Belə ki, kompüter və linqafon otağı tələbələrin istifadəsinə verilmişdir.

*6.1.4 Tədris laboratoriyalarının mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında tədrisin yönümünə uyğun linqafon və kompüter otağı mövcuddür.

*6.1.5 İstehsalat-təcrübə bazasının mövcudluğu vəziyyəti*

İstehsalat təcrübəsi fevralın 16-sı başlayır, mayın 24-ü bitir. Tələbələrə ixtisasına uyğun təcrübə müəssisəsini müəyyən etmək və həmin müəssisədə təcrübə keçmək hüququ verilir. Bu halda müəssisə rəhbərinin razılıq məktubu fakültə dekanının təqdimatı ilə filial direktoruna təqdim olunur. Təcrübə obyektlərini

fərdi qaydada müəyyənləşdirilmiş tələbələr istisna olmaqla digər tələbələr üçün fakültə (Zaqatala İqtisad Məktəbi) tərəfindən ixtisasa uyğun seçilir və həmin təcrübə obyektləri ilə razılaşdırılaraq müqavilələr imzalanır. Təcrübənin təşkilinə və gedişinə İqtisadiyyat və idarəetmə kafedrası nəzarət edir, təcrübənin gedişi və davamiyyətlə bağlı məlumatları filialın rəhbərliyinə təqdim edir. UNEC-in Zaqatala filialına təyin olunmuş təcrübə rəhbərləri təcrübə ilə əlaqədar əmr imzalandıqdan sonra bir həftə ərzində tələbələrlə təcrübənin keçirilməsi ilə bağlı görüş keçirir, onları qaydalarla tanış edir və tələbələrin akademik təqvimdə təyin edilmiş vaxtda təcrübə obyektinə göndərilməsini təşkil edir. Həftə ərzində tədris yükündə nəzərdə tutulmuş təcrübə saatlarına uyğun olaraq təcrübə obyektində təcrübənin gedişinə nəzarət edir. Təcrübə rəhbərləri tələbələrin əməyin mühafizəsi və təhlükəsizlik texnikası qaydaları ilə məlumatlandırılmasına cavabdehdir. Təcrübə həbərləri təcrübə obyektində tələbələrin istehsalat təcrübəsinin təşkilinə və keçirilməsinə, həmçinin təcrübə gündəliyinin doldurulmasına nəzarət edir, əcrübə başa çatdıqdan sonra 5 gün müddətində tələbələrin təcrübə gündəliklərini müəssisədən təhvil alır və gündəlikdə yazılmış qeydlərə və qiymətləndirilmələrə əsasən yekun protokol (qiymətləndirmə cədvəli) tərtib edərək fakültəyə təqdim edir.

*6.1.6 ATM-də distant təhsil infrastrukturunun mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında xüsusilə pandemiya dövründə distant təhsil həyata keçirilmişdir. Hal-hazırda hümanitar fənlər üzrə dərslər distant formada həyata keçirilir. Filialda distant təhsil infrastrukturu olaraq EDUMAN eletron universitet idarəetmə sistemi və “ZOOM” platformasından istifadə olunur.

*6.1.7 Nəqliyyat xidmətinin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında 1 xidməti avtomobil istifadə olunur.

*6.1.8 Tədris infrastrukturundan istifadənin əlçatanlığı vəziyyəti*

UNEC-in Zaqatala filialında təhsilverənlər və təhsilalanlar üçün müvafiq tədris infrastrukturu mövcudur. Belə ki, EDUMAN elektron universitet idarəetmə modeli vasitəsilə təhsilverən və təhsilalanların şəxsi kabinetlər mövcuddur və həmin kabinetlər vasitəsilə bütün tədris prosesini izləmək mümkündür.

*6.1.9 Sağlamlıq imkanları məhdud şəxslər üçün uyğunlaşdırılmış tədris infrastrukturunun mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında tədris və imtahan prosesində sağlamlıq imkanları məhdud şəxslər üçün lazımi şərait yaradılır.

*6.1.10 Yeməkxanaların mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialının tədris binasının I mərtəbəsində professor-müəllim və tələbə heyəti ümumi sahəsi 65,9 $m^2$ olan yeməkxana fəaliyyət göstərir. Yeməkxananın fəaliyyəti mövcud qanunvericiliyə uyğun birgə fəaliyyət müqaviləsi əsasında həyata keçirilir.

*6.1.11 Yataqxanaların mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında ümumi sahəsi 2360.6 (kv.m), 5 mərtəbəli yataqxana tələbələrin istifadəsinə verilmişdir.

*6.1.12 Tibbi xidmətin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında ilkin tibbi yardımın göstərilməsi üçün müvafiq tibb otağı və tibb bacısının xidməti mövcuddur.

*6.1.13 İT xidmətinin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialınının strukturunda komputer mütəxəssisi vəzifəsi mövcuddur və bu sahə üzrə əməkdaş fəaliyyət göstərir. Hazırda İT xidmətinin təkmilləşdirilməsi istiqamətində işlər davam etdirilir.

*6.1.14 Tədris infrastrukturunun istifadəsinin monitorinqinin aparlması vəziyyəti*

UNEC-in Zaqatala filialında hər tədris ilinin əvvəlində tədris infrastrukturunun monitorinqi həyata keçirilir. Çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlər həyata keçirilir.

### *6.2. Elmi-tədqiqat infrastrukturu*

*6.2.1 Elmi-tədqiqat və innovasiya mərkəzinin mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında UNEC Elmi Şurasının 27 yanvar 2023-cü il tarixli qərarı ilə UNEC Regional İqtisadiyyat Tədqiqat Mərkəzi yaradılmışdır.

*6.2.2 Elmi tədqiqatların aparılmasına imkan verən müasir avadanlıqlarla təchiz olunmuş laboratoriyaların mövcudluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında müvafiq labaratoriya mövcud deyildir.

## 7. BEYNƏLMİLƏLLƏŞMƏ

*7.1 Beynəlmiləlləşmə siyasəti*

*7.1.1 ATM-in beynəlmiləlləşmə siyasətinin mövcudluğu və beynəlmiləlləşmə siyasətinin SİP-ə uyğunluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında beynəlmiləşmə siyasəti UNEC-lə paralel aparılır.

*7.1.2 Beynəlmiləlləşmə siyasətində mübadilə proqramlarının təşviq olunma vəziyyəti*

UNEC-in Zaqatala filialının professor-müəllim heyəti UNEC tərəfindən həyata keçirilən mübadilə proqramlarında iştirak etmə imkanına malikdirlər. Professor-müəllim heyətindən 5 nəfərin Türkiyənin müvafiq universitetlərində mübadilə proqramında iştirak etməsi qəbul olunmuşdur. Onlardan 1 nəfəri Mevlana mübadilə proqramı üzrə Türkiyə universitetlərinə ezam olunmuşdur.

*7.1.3 Beynəlmiləlləşmə siyasətində əcnəbi təhsilalanların təşviq olunma vəziyyəti*

UNEC-in Zaqatala filialında beynəlmiləşmə siyasəti üzrə əcnəbi vətəndaşlar cəlb olunmamışdır.

*7.1.4 Beynəlxalq akademik heyətə münasibətdə beynəlmiləlləşmə siyasəti*

UNEC-in Zaqatala filiialının professor-müəllim heyətinin UNEC tərəfindən həyata keçirilən mübadilə proqramlarında iştirak etmələri üçün müvafiq şərait yaradılır.

*7.1.5 Beynəlxalq tədqiqatçılara münasibətdə beynəlmiləlləşmə siyasəti*

UNEC tərəfindən təşkil olunan beynəlxalq elmi konfranslarda, formlarda beynəlxalq iqtisadçılar dəvət olunur.

*7.1.6 Beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarınamünasibətdə beynəlmiləlləşmə siyasəti*

ATM-də beynəlxalq təhsil şəbəkəsinə və beynəlxalq təhsil təşkilatlarına münasibətdə beynəlmiləlləşmə siyasəti həyata keçirilməmişdir.

*7.1.7 İkili diplom proqramlarına münasibətdə beynəlmiləlləşmə siyasəti*

UNEC-in Zaqatala filialında ikili diplom proqramı mövcud deyildir.

*7.1.8. Beynəlmiləlləşmə siyasətinin dövrü yenilənməsi vəziyyəti*

ATM-də beynəlmiləşmə siyasəti üzrə meyarlar mövcud deyildir.

*7.2 Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi və təşkilatı strukturu*

*7.2.1. Beynəlmiləlləşmə proseslərinin idarə edilməsi üzrə təşkilatı strukturun mövcud olması vəziyyəti*

UNEC-in Zaqatala filialında müvafiq struktur bölmə mövcud deyildir.

*7.2.2. Təşkilati strukturun beynəlmiləlləşmə siyasətinə uyğunluğu vəziyyəti*

UNEC-in Zaqatala filialında müvafiq struktur bölmə mövcud deyildir.

*7.2.3 Mübadilə proqramlarında iştirak edən təhsilalanların kreditlərinintanınması mexanizminin mövcudluğu və tətbiqi vəziyyəti*

UNEC-in Zaqatala filialının tələbələri mübadilə proqramlarında iştirak etməmişlər. Lakin növbəti tədris illərində filial tələbələrinin UNEC-də tətbiq olunan mübadilə proqramlarında iştirak etmələri planlaşdırılır.

*7.2.4 Əcnəbi professor-müəllim heyətinin tədris prosesinə cəlb edilməsivəziyyəti*

UNEC-in Zaqatala filialında əcnəbi professor-müəllim heyəti tədris prosesinə cəlb edilməmişdir.

*7.2.5 Beynəlmiləlləşmə siyasətinin idarəedilməsinin səmərəliliyinin monitorinq edilməsi vəziyyəti*

Filialda beynəlmiləşmə siyasəti üzrə müvafiq fəaliyyət həyata keçirilməmişdir.

*7.2.6 ATM-də təşkil olunan ikili diplom proqramları üzrə təlim və tədrisprosesinin AKTTS-in və yerli qanunvericiliyin tələblərinə uyğun olaraq ənzimlənməsi vəziyyəti*

UNEC-in Zaqatala filialında ikili diplom proqramı mövcud deyildir.

*7.2.7 Beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadilə dinamikası*

ATM-də beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadiləsi həyata keçirilməmişdir.

*7.2.8 Akademik və inzibati heyətin mübadiləsi prosesinin şəffaf və hərkəsə əlçatanlıq prinsipləri əsasında hazırlanmış daxili prosedurlar əsasında təşkili vəziyyəti*

ATM-də beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadiləsi həyata keçirilməmişdir.

| |
|---|
| *7.2.9 ATM-də mövcud olan mübadilə proqramları üzrə iştirakçılılığın təmin olunması dinamikası və təlim və tədris prosesinin AKTTS-in tələblərinə uyğuntəşkili vəziyyəti*<br>ATM-də beynəlmiləlləşmə siyasətinə uyğun olaraq akademik heyətin mübadiləsi həyata keçirilməmişdir.<br><br>*7.2.10 Beynəlxalq reytinqlərdə ATM-in təmsil olunma vəziyyəti*<br>UNEC-in Zaqatala filialı Beynəlxalq reytinqlərdə təmsil olunmamışdır. |

*7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar*

| |
|---|
| *7.3.1 Beynəlmiləlləşmə siyasətinin icrasına maliyyə resurslarının ayrılması vəziyyəti*<br>UNEC-in Zaqatala filialında beynəlmiləşmə siyasətinin icrasıyla bağlı maliyyə resursları ayrılması nəzərdə tutulmamışdır.<br><br>*7.3.2 Beynəlmiləlləşmə siyasətinin icrasına insan resurslarının ayrılması vəziyyəti*<br>UNEC-in Zaqatala filialında müvafiq struktur bölmə mövcud deyildir.<br><br>*7.3.3 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan infrastrukturun mövcud olması vəziyyəti*<br>UNEC-in Zaqatala filialında müvafiq struktur bölmə mövcud deyildir.<br><br>*7.3.4 Beynəlmiləlləşmə siyasətinin icrasına tələb olunan resursların monitorinqi və qiymətləndirilməsi vəziyyəti*<br>UNEC-in Zaqatala filialında müvafiq struktur bölmə mövcud deyildir. |

*7.4 Beynəlmiləlləşmə performansı*

| |
|---|
| *7.4.1. Beynəlmiləlləşmə prosesi çərçivəsində əldə edilən nəticələrin dinamikasına nəzarət mexanizminin mövcudluğu vəziyyəti*<br>UNEC-in Zaqatala filialının beynəlmiləşmə prosesində aktiv fəaliyyəti mövcud deyildir.<br><br>*7.4.2. Beynəlmiləlləşmə proesesi çərçivəsində ehtiyacəsaslı təkmilləşdirmə fəaliyyətlərinin mövcudluğu vəziyyəti*<br>UNEC-in Zaqatala filialında hazırlanan fəaliyyət planında beynəlmiləşmə istiqamətində müvafiq işlər öz əksini tapacaqdır. |

**5. Təhsil müəssisəsinin özünütəhlil nəticələri**

| İstiqamətlər və meyarlar | Yekun Bal | Uyğun deyildir | Qismən uyğundur | Əsasən uyğundur | Uyğundur |
|---|---|---|---|---|---|
| **1. Strateji inkişaf** | | | | | |
| 1.1 Ali təhsil müəssisəsinin (ATM) missiyası, strategiyası, strateji istiqamətləri və hədəfləri | 26 | | 26 | | |
| 1.2 Strateji inkişaf proqramının icrası və monitorinqi | 11 | | 11 | | |
| **İstiqamət üzrə yekun bal** | **37** | | **37** | | |
| **2. Keyfiyyət təminatı** | | | | | |
| 2.1 Keyfiyyət təminatı siyasəti | 10 | | | 10 | |
| 2.2 Daxili keyfiyyət təminatı mexanizmləri | 20 | | 20 | | |
| 2.3 Keyfiyyət təminatı mədəniyyəti | 8 | | 8 | | |
| **İstiqamət üzrə yekun bal** | **38** | | **38** | | |
| **3.Təlim və tədris** | | | | | |
| 3.1 Təhsilalanların qəbulu və əvvəlki kvalifikasiyaların tanınması | 12 | | | | 12 |
| 3.2 Təhsil proqramları | 29 | | | | 29 |
| 3.3 Tədrisin təşkili | 62 | | | | 62 |
| 3.4 Tədris metodları və üsulları | 22 | | | | 22 |
| 3.5 Təlim və tədris resursları | 47 | | | | 47 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 3.6 Təhsilalanların bilik və bacarıqlarının qiymətləndirilməsi və təhsil sənədinin verilməsi | 35 | | | | 35 |
| 3.7 Professor-müəllim heyəti | 33 | | | | 33 |
| 3.8 Tələbəyönümlü tədris | 35 | | | | 35 |
| 3.9 Təhsil proqramlarının monitorinqi və yenilənməsi | 14 | | | | 14 |
| 3.10 Karyera xidməti və məzunlarla davamlı əlaqə sistemi | 14 | | | | 14 |
| **İstiqamət üzrə yekun bal** | **303** | | | | **303** |
| **4. Elmi tədqiqat** | | | | | |
| 4.1 Elmi-tədqiqat strategiyası | 19 | | | 19 | |
| 4.2 Tədqiqat resursları | 16 | | | 16 | |
| 4.3 Elmi-tədqiqat fəaliyyəti | 46 | | | 46 | |
| 4.4 Elmi-tədqiqat fəaliyyətində və təhsildə akademik dürüstlük mexanizminin mövcud olması və tətbiqi vəziyyəti | 8 | | | 8 | |
| **İstiqamət üzrə yekun bal** | **89** | | | **89** | |
| **5. İdarəetmə sistemi** | | | | | |
| 5.1 İdarəetmə orqanları | 25 | | | | 25 |
| 5.2 İnsan resurslarının idarə edilməsi | 28 | | | | 28 |
| 5.3 Maliyyə resusrlarının idarə ediləsi | 42 | | | | 42 |

| | | | | | |
|---|---|---|---|---|---|
| 5.4 İnformasiya idarəetmə sistemi | 22 | | | | 22 |
| 5.5 İctimaiyyətlə əlaqələr | 15 | | | 15 | |
| **İstiqamət üzrə yekun bal** | **132** | | | | **132** |
| **6. İnfrastruktur** | | | | | |
| 6.1 Tədris infrastrukturu | 39 | | | | 39 |
| 6.2 Elmi-tədqiqat infrastrukturu | 5 | | | 5 | |
| **İstiqamət üzrə yekun bal** | **44** | | | | **44** |
| **7. Beynəlmiləlləşmə** | | | | | |
| 7.1 Beynəlmiləlləşmə siyasəti | 15 | | 15 | | |
| 7.2 Beynəlmiləlləşmə prosesinin idarə edilməsi və təşkilatı strukturu | 19 | | 19 | | |
| 7.3 Beynəlmiləlləşmə siyasətinin icra edilməsinə ayrılan resurslar | 9 | | 9 | | |
| 7.4 Beynəlmiləlləşmə performansı | 5 | | | 5 | |
| **İstiqamət üzrə yekun bal** | **48** | | 48 | | |
| **Təhsil müəssisəsi üzrə akkreditasiya qiymətləndirilməsinin yekun nəticəsi** | **691** | | | | |

## 6. Təşkilat komissiyasının gəldiyi nəticə və qeydlər

***I istiqamət – Strateji inkişaf***

Təşkilat komissiyasının gəldiyi nəticəyə əsasən UNEC-in Zaqatala filialında strateji inkişaf planının mövcud olmaması, konkret plana uyğun məqsəd və hədəflərin müəyyən edilməməsi çatışmazlıq kimi qəbul edilmişdir. UNEC-in Zaqatala filialında UNEC-in strateji inkişaf planına istinad edərək qısa və uzunmüddətli strateji fəaliyyət planı hazırlanması tövsiyə edilmişdir.

***II istiqamət – Keyfiyyət təminatı***

Təşkilat komissiyasının gəldiyi əsas nəticəyə əsasən UNEC-in Zaqatala filialında keyfiyyət təminatı mədəniyyətinin formalaşdırılması və bu istiqamətdə daxili keyfiyyət təminatı mexanizmlərinin təkmilləşdirilməsinə ehtiyac vardır. Filialda Keyfiyyət təminatı və qiymətləndirmə üzrə ayrıca struktur bölmənin yaradılması və bu sahədə UNEC-lə paralel fəaliyyət göstərilməsi tövsiyə edilir.

***III istiqamət – Təlim və tədris***

UNEC-in Zaqatala filialında təlim və tədris prosesi Təhsil haqqında qanuna, AR Nazirlər kabinetinin qərarlarına, UNEC və filial elmi şurasının qərarlarına və digər standartlara uyğun təşkil edilmişdir. Mövcud prosesinin daha da təkmillədirilməsi, tədrisin keyfiyyətinin artırılması, informasiya texnalogiyaları üzrə müvafiq labaratoriyaların qurulması və bu istiqamətdə UNEC-in təcrübəsindən yararlanmağı məqsədəuyğun hesab edilir. Tədris prosesində tətbiq olunan EDUMAN elektron idarəetmə sisteminin mövcud olan bütün bölmələrin filialda fəaliyyətinin təmin olunması, texnaloji imkanların təkmilləşdirilməsi tövsiyə edilir. Məzunların əmək bazarında izlənilməsi mexanizmasının təkmilləşdirilməsi və rəylərinin operativ şəkildə öyrənilməsi məqsədilə filialda məzunlar birliyinin yaradılmasını məqsəduyğun hesab edilir.

***IV istiqamət – Elmi tədqiqat***

UNEC-in Zaqatala filialında elmi tədqiqat sahəsində 2018-ci ildən konfranslar keçirilmişdir. Professor müəllim heyətinin elmi tədqiqa sahəsindəki fəaliyyətləri qənaətbəxş hesab edilir. Lakin elmi tədqiqat sahəsində stratejik fəaliyyət planının hazırlanması və təhsilverənlərin səmərəli elmi tədqiqat fəaliyyətinə yönləndirilməsi tövsiyə edilir. Bununla əlaqədar olaraq filialda yeni yaradılmış UNEC Regional İqtisadiyyat Tədqiqat Mərkəzinin təhsilverənlərin elmi tədqiqat fəaliyyətinə xüsusi tövhələr verəcəkdir.

*V istiqamət – İdarəetmə sistemi*

Təşkilat komissiyasının özünütəhlil hesabatının qiymətləndirməsinə əsasən İdarəetmə sistemi istiqaməti qənaətbəxşdir. Lakin mövcud istiqamət üzrə səmərəliliyinin artırılması üçün UNEC-də tətbiq olunan differensial əməkhaqqı sisteminin filial əməkdaşları üçün də tətbiq olunması tövsiyə olunmuşdur. Bununla yanaşı filialda giriş-çıxış qeydiyyat sisteminin (Turniket sistemin) qurulmasının və filial üçün alternativ maliyyə mənbələrinin müəyyənləşdirilməsinin vacibliyini də qeyd etmək lazımdır.

*VI istiqamət – İnfrastruktur*

Təşkilat komissiyasının gəldiyi nəticəyə əsasən UNEC-in Zaqatala filialında tədris infrastrukturu tədris prosesinin təşkili üçün tam uyğundur. Kitabxananın infrastrukturunun təkmilləşdirilməsi üçün filialın binasında oxu zalının yaradılmasını tövsiyə edirik.

*VII istiqamət – Beynəlmiləlləşmə*

Təşkilat komissiyasının gəldiyi nəticəyə əsasən UNEC-in Zaqatala filialında beynəlmiləşmə siyasəti üzrə strateji fəliyyət planının hazırlanması vacibdir. Hazırlanacaq strateji fəaliyyət planında filialın təhsilverənlərinin və təhsilalanlarının UNEC-də mövcud olan beynəlxalq mübadilə proqramlarında iştirakının həyata keçirilməsi öz əksini tapmalıdır.